HARUN YƏHYA

QƏDİM DÖVRLƏRDƏN BU GÜNƏ QƏDƏR OLAN BÜTPƏRƏST İNANC:

# DARVİNİZM DİNİ



HARUN YƏHYA (ADNAN OKTAR)

# DARVİNİZM DİNİ

*Qədim dövrlərdən bu günə qədər olan bütpərəst inanc: Darvinizm dini — Darvinizmin mənşəyi, missionerliyi və təkamül dininin iç üzü.*

— 9 fəsil —

# Mündəricat


1 Oxucuya 4

2 Yazıçı və əsərləri haqqında 6

3 Giriş 9

4 Birinci hissə: Darvinizm batil dindir 13

5 İkinci hissə: Darvinizm dininin mənşəyi 26

6 Üçüncü hissə: Darvinizm dinini yaxından tanıyaq 68

7 Nəticə 117

8 Əlavə bölmə: Təkamül yalanı 120

9 Ədəbiyyat 146

FƏSİL

# Oxucuya

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə

əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

FƏSİL

# Yazıçı və əsərləri haqqında

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

FƏSİL 1

# Giriş

> *Şübhəsiz ki, bunların içində olduqları din çökmüşdür. Etdikləri işlər də batildir!"*
>
> (Əraf surəsi, 139)

Elə bir din düşünün ki, qurucusu bir alim, kitabı guya elmi mesajla yola çıxan araşdırma kitabı, tərəfdarları isə özlərini alim adı ilə tanıdan insanlar olsun. Bu eyni zamanda elə bir din olsun ki, indiyə qədər bütün sivilizasiyalarda, fikir axınlarında və ideologiyalarda özünə yer əldə etsin, təqibçilərinin sayı isə yüz milyonlarla ölçülsün. Tarix, sosiologiya, fəlsəfə, psixologiya, biologiya, qısacası bütün elm sahələri üçün təməl bir düşüncə şəkli, "doğruları işıqlandıran işıq" olaraq təqdim edilsin.

Ümumi xətlərini çəkdiyimiz bu batil dini əslində hamınız çox yaxından tanıyırsınız. Bu dinlə gündəlik həyatınızda qarşılaşır, qəzetlərdə bu dinin təbliğatını oxuyur, televizorda da yenə bu dinin təlqinlərini izləyirsiniz. Bu din həyatınızın hər anına girmiş, sanki bir hissəsi olmuşdur. Hətta bəlkə də bəziləriniz (bilərək, ya da bilməyərək) bu dinə tabe olmusunuz. Məhz bu azğın din; "darvinizm dini"dir.

Yuxarıdakı açıqlamanı oxuduqdan sonra özünüzə bəzi suallar vermiş, "darvinizm din deyil, elmi nəzəriyyədir!" deyə düşünmüş ola bilərsiniz. Dünyadakı bir çox insan da bu şəkildə düşünməkdədir. Bəzi insanlar təkamül nəzəriyyəsinin isbat edilmiş elmi həqiqət olduğunu zənn edir, dünya üzərindəki təsirinin altında da bu qondarma "elm" yatdığına

inanar. Bu düşüncə tərzi bir sıra ardıcıl səhvlərə əsaslanır. Bu kitabı yazmadakı məqsəd də bu yanılmaları ortaya qoymaq, elm görünüşünün xəyali təsirdən kənara çıxa bilmədiyini, yanılmaya düşən insanlara göstərməkdir. Çünki təkamül nəzəriyyəsi; qurucusu, yalançı müqəddəs kitabı, davamçıları, yalançı cavabları, bütləri, inancları, fərqli açıqlamaları, tənqidləri və elmi inkişafa qapalı quruluşu ilə Allahın varlığını inkar edən bütpərəst bir dindir.

Darvinizmin Allahın varlığını inkar üzərinə qurulmuş, bütpərəst bir din olduğu həqiqəti artıq bir çox insan tərəfindən yüksək səslə dilə gətirilir, yazılarda, məqalələrdə və kitablarda hətta çox vaxt şəxsən bu dinin tərəfdaşları tərəfindən dəlilləri ilə ortaya qoyulmaqdadır. Buna görə də, kitab boyunca oxuduqlarınız qarşısında bəlkə siz də çox təəccüblənəcək, darvinizmin nə qədər əhatəli, dolaşıq və yayılmış bir din olduğunu öyrəndiyinizdə, neçə ildir necə olub da bu açıq-aşkar həqiqəti fərq edə bilmədiyinizi özünüzə soruşacaqsınız.

Darvinizm batil bir dindir, hətta dünyanın ən böyük və ən məşhur dinlərindən biridir. Bu batil din müxtəlif təbliğat üsulları, taktikalar, saxtakarlıqlar və gözdən pərdə asmalarla insanlara çox şiddətli bir şəkildə təlqin edilməkdə, əsrlərdir tərəfdarlarının sayını böyük bir sürətlə artırmaqdadır. İnsanlar bilərək, ya da bilməyərək bu batil dinə tabe olmaqda, bir müddət sonra da qatı bir darvinist olmaqdadırlar.

Lakin Allahı inkar edən bu bütpərəst dinin qarşısında dayana bilmədiyi faktlar, elmi sahədə baş verən tərəqqi davamlı ortaya qoyulmaqdadır və insanlar hər nailiyyətlə birlikdə, yaradılış həqiqəti ilə bir daha qarşı-qarşıya qalmaqdadırlar. İlk canlının necə meydana gəldiyi, canlılardakı qüsursuz yaradılış dəlilləri, canlı varlıqlardakı kompleks quruluş, növlərdəki müxtəliflik və daha bir çox sual qarşısında darvinizm dini həmişə gücünü itirməkdə, hər keçən gün həyat damarlarından birini

daha itirməkdədir. Çünki kor-koranə bir inanc üzərinə qurulan bu din, molekulyar biologiyada, genetikada, paleontologiyada, bioriyaziyyatda yaşanan hadisələr qarşısında çarəsiz qalmaqdadır. Bu elm sahələri tərəfindən ortaya qoyulan saysız tapıntı, təkamülün heç bir zaman reallaşmadığını çox açıq və qəti olaraq göstərməkdədir.

Elmi nailiyyətlər nəticəsində təkrar gözlər önünə sərilən tək həqiqət "yaradılış həqiqətidir"dir. İnsan yalnız adi gözlə belə ətrafındakı canlıları araşdırsa fövqəladə bir ağılın, planın və yaradılışın dəlillərini görəcək. Bir mikroskopik dəniz canlısında, tək bir atomda, hüceyrədə, ya da hər hansı bir canlı orqanizmində insan oğlunu təəccübləndirəcək qədər qüsursuz quruluş görülməkdədir. Təbiətin hər tərəfinə hakim olan bu böyük ağıl, qüsursuz nizam, sonsuz güc və qüdrət sahibi olan Allaha aiddir.

AĞILLI DİZAYN yəni YARADILIŞ

Kitabda bəzən qarşınıza Allahın yaratmasındakı mükəmməlliyi vurğulamaq üçün istifadə etdiyimiz "dizayn" sözü çıxacaq. Bu sözün hansı məqsədlə istifadə edildiyinin doğru başa düşülməsi çox əhəmiyyətlidir. Allahın bütün kainatda qüsursuz dizayn yaratmış olması, Rəbbimizin əvvəl planlaşdırdığı daha sonra yaratdığı mənasını verməz. Bilinməlidir ki, yerlərin və göylərin Rəbbi olan Allahın yaratmaq üçün hər hansı bir "dizayn" etməyə ehtiyacı yoxdur. Allahın hazırlaması və yaratması eyni anda olar. Allah bu cür nöqsanlardan münəzzəhdir. Allahın, bir şeyin, ya da bir işin olmasını dilədiyində, onun olması üçün yalnız "Ol" deməsi kifayətdir. Ayələrdə belə buyurmaqdadır:

> *O, bir şeyin olmasını istədiyi zaman ona yalnız: "Ol!" - deyə əmr edər. O da dərhal olar.*
>
> **(Yasin surəsi, 82)**

> *Allah göyləri və yeri yoxdan yaradandır. Bir şeyin olmasını istəyən zaman ona yalnız: “Ol!” - deyər, o da dərhal olar.*
>
> **(Bəqərə surəsi, 117)**

BİRİNCİ HİSSƏ

# Darvinizm batil dindir









**“Bəzi dəyişikliklərə məruz qalmış, ancaq əslində hələ də eyni xüsusiyyətləri daşıyan Darvin nəzəriyyəsi, özünə ilahi bir şövqlə inanan tərəfdarlarının təbliğ etdiyi bir din halına gəlmişdir və nəzəriyyəyə şübhə ilə baxan, elmi, inancı olmayan, çaş-baş qalmış insanlar olduğunu düşünməkdədirlər.”**

**(Margorie Grene, “Encounter”, noyabr 1959, səh. 48-50)**

Giriş hissəsində də ifadə etdiyimiz kimi təkamül nəzəriyyəsinin etibarsızlığı elmi kütlələr tərəfindən illərdir ortaya qoyulmaqdadır. Ortaya atıldığı gündən etibarən elm sahəsində yaşanan bir çox nailiyyət bu nəzəriyyənin iddialarını bir-bir keçərsiz etmişdir. Elektron mikroskopunun kəşf olunması, genetik qanunlarının və ardından DNT-nin kəşf edilməsi, canlı orqanizmlərin son dərəcə kompleks sistemlər ehtiva etdiklərinin ortaya çıxması və daha bir çox elmi nailiyyət, darvinizmin əleyhinə olmuş və olmağa da davam etməkdədir. Ancaq biz burada darvinizmin fərqli bir tərəfini təhlil etdiyimiz üçün, təkamülün elm qarşısındakı tənəzzülü detallarına girməyəcəyik. Darvinizmin elmi həqiqətlər işığında heç bir etibarlılığı olmadığını, elmi dəlillərin təkamül nəzəriyyəsini etibarsız etdiyini kitabın sonundakı “Təkamül yanılması” hissəsində oxuya bilərsiniz (Ayrıca “Təkamül Yalanı”, “Həyatın həqiqi mənşəyi”, “Təkamülçülərin yanılmaları”, “Təkamülçülərin etirafları” və digər kitablarımız da bu mövzularla əlaqədar ətraflı məlumat tapa bilərsiniz).

Lakin, elm bu qədər sürətlə irəliləməsinə və insan həyatına davamlı bir yenilik gətirməsinə baxmayaraq bəzi elm adamları hələ də “mürtəce”, “fanatik” və “mühafizəkar” deyə biləcəyimiz bir zehniyyətlə 19-cu əsrin (2 əsr əvvəl) ibtidai elm anlayışı ilə yaradılmış, bu gün uşaqları belə güldürəcək sadəlikdə və səthilikdə nəzəriyyələrə sahib çıxmağa çalışmaqdadırlar.

Görəsən darvinizmin bəzi elmi kütlələr tərəfindən bu cür yayılmasının səbəbi nədir? Ortada təkamül nəzəriyyəsini dəstəkləyən tək bir konkret elmi dəlil belə yox ikən, əksinə bütün canlıların çox üstün bir yaradılışla var edildikləri, təkamül nəzəriyyəsinin iddia etdiyi kimi təsadüfən inkişaf edə bilməyəcəkləri açıq-aşkar ikən, bəzi insanlar necə olur ki, hələ də qatı təkamül müdafiəçisi ola bilməkdədirlər?

Məhz bunun səbəbi nəzəriyyənin, elmdən çox zehniyyətin, inancın ifadəsi olmasında yatmaqdadır. Bu zehniyyət, təkamülü elmi məlumatlarla araşdırılacaq elmi bir nəzəriyyə olaraq deyil, nə olursa olsun təsdiqlənməsi lazım olan bir inanc olaraq görməkdədir. Həmin zehniyyətə sahib insanların bu inancları da elmi səbəblərə söykənmədiyi üçün, təkamül nəzəriyyəsini çürüdən elmi dəlillərin ortaya qoyulması nəzəriyyəyə olan kor-koranə bağlılıqlarını qəti olaraq təsir etməməkdədir. Təkamül əleyhinə göstərilən dəlillər nə qədər güclü olursa olsun, təkamülçülər bunlara əhəmiyyət verməməkdə, inanclarını şiddətli bir şəkildə müdafiə etməyə davam etməkdədirlər.

Darvinistlər üçün təkamül nəzəriyyəsi hər hansı elmi tezisdən çox uzaqdır. Təkamül nəzəriyyəsindən bəhs edildiyində təkamülçü elm adamları üçün tərəfsizlik, elmilik, obyektivlik kimi anlayışlar bir anda ortadan qalxar. Nəzəriyyələrinə o qədər şiddətli bir şəkildə bağlıdırlar ki, təkamülçü “Nature” jurnalında nəşr olunan bir məqalədə ifadə edildiyi kimi; “Bu hörmətli elm adamları, “əgər təkamül nəzəriyyəsi doğrudursa” deyə başlayan bir cümlə yazmaqdansa sağ əllərini kəsməyi seçərlər.”1 Çünki təkamül nəzəriyyəsinin doğru olmaması kimi bir ehtimalı ağıllarına belə gətirmək istəməməkdədirlər.

Bu, insanların alimlərdə görməyə vərdiş etmədikləri bir yanaşmadır. Çünki insanlar ümumiyyətlə alimlərin fəlsəfi və ideoloji ön mühakimələrə söykənərək danışacaqlarına ehtimal verməzlər. Onlara

görə elm adamları konkret dəlillərlə sübut edilmiş, doğruluğu təcrübələrlə isbat edilmiş həqiqətləri dilə gətirən, obyektiv insanlardır. Bu səbəblə də təkamül nəzəriyyəsinin doğruluğundan heç bir şəkildə şübhə etməzlər. Halbuki bu, böyük bir yanılmadır; çünki təkamülçü elm adamları üçün təkamül nəzəriyyəsindən söhbət gedəndə bütün bu elmi meyarlar ortadan qalxmaqdadır. Darvinizmin qabaqcıl ideoloqlarından Pierre Teilhard de Chardinin aşağıdakı sözləri, darvinistlərin təkamül nəzəriyyəsinə olan yanaşmalarının "elm" səviyyəsini gözlər önünə sərməkdədir:

"Təkamül bir nəzəriyyə, bir sistem, ya da bir fərziyyədirmi? Xeyr, o bunların hamısından kənar bir şeydir. Təkamül, özündən şübhə edilməyən yeganə qanundur ki, bütün nəzəriyyələr, bütün sistemlər, bütün fərziyyələr, ciddiyə alına bilər və doğru ola bilmək üçün ona söykənmək məcburiyyətindədirlər. Təkamül, bütün həqiqətləri işıqlandıran bir işıq, bütün xətlərin özündən çıxması lazım olan bir ana xətdir. Məhz təkamül budur."2

Yuxarıdakı sitatda olduğu kimi, darvinistlərin təkamül nəzəriyyəsini ifadə edərkən istifadə etdikləri terminlər də bizə bu mövhumatçı yanaşma haqqında çox əhəmiyyətli işarələr verməkdədir. Bu izahatlarda elmi sözlərdən çox, kor-koranə bağlılığı ifadə edən sifətlər, şərhlər istifadə edilir. Məsələn dünyanın qabaqcıl təkamülçülərindən G. W. Harper təkamül nəzəriyyəsini "metafizik inanış"3, Harvardın tanınmış təkamülçü bioloqlarından Ernst Mayr isə "indiki vaxtda insanın dünyaya baxış aspekti"4 olaraq adlandırır. 20-ci əsrin bəlkə də ən bilinən təkamülçülərindən biri olan Julian Huxley təkamülü "universal və hər yanı örtmüş olan bir üsul" olaraq görmüş və "həqiqətin bütünü"5 olaraq adlandırmışdır. Zamanının ən məşhur təkamülçülərindən olan və 1975-ci ildə ölümünün ardından dövrümüzün qabaqcıl təkamülçü genetikaçıları tərəfindən bioqrafiyası hazırlanan Theodosius Dobzhanskyın təkamülə

yanaşmasını Chardininkini davam etmişdir. Dünyanın tanınmış filosoflardan olan Karl Popper, təkamül nəzəriyyəsinin elmi nəzəriyyə deyil, "metafizik bir araşdırma proqramı"6 olduğunu ifadə edir. Təkamülçülərin bütün bu təriflərindən sonra İngilis fiziki H.S. Lipson təkamül nəzəriyyəsinin mövcud vəziyyətini belə izah edir:

"Əslində təkamül, bir baxıma elmi bir din halına gəlmişdir. Demək olar ki, bütün elm adamları bunu qəbul etdilər və bir çoxları tapıntılarını müşahidələrinə uyğunlaşdırmaq üçün əyib bükməyə hazırlaşmaqdadırlar."7

Yuxarıda adları sayılan bütün bu insanların darvinizmi izah edərkən istifadə etdikləri sözlər, anlayışlar həqiqətən də diqqət çəkicidir. Bu söz və anlayışlarda nə bir riyazi nəticədən, nə bir konkret dəlildən, nə də əldə edilən hər hansı bir tapıntıdan təkamülü dəstəkləyən təcrübə, ya da müşahidələrdən bəhs edilməməkdədir. Bunun yerinə, təkamül həmişə "həqiqətin bütünü", "hər yanı örtmüş əsas üsul", "bütün həqiqətləri işıqlandıran bir işıq" kimi qəribə sifətlərlə xarakterizə olunmaqdadır.

Qeyd etmək lazımdır ki, heç kim bu cür ifadələrdən istifadə etmir, metafizik şərhlərə müraciət etmir və cazibə, dünyanın fırlanma qanunu və ya termodinamika qanunu üçün şişirdilmiş mülahizələr etmir. Çünki elmi həqiqətlər ortadadır və hər kəs tərəfindən könül rahatlığı ilə açıq şəkildə qəbul edilməkdədir. Buna görə də, nə Nyuton, nə Eynşteyn, nə də başqa bir alim üçün həddini aşan şişirdilmiş ifadələr istifadə edilməkdədir. Məsələn cazibə qanununu heç kim "təmin edici inanış" olaraq adlandırmaz, ya da termodinamika qanunları üçün "əgər doğrudursa, demək yerinə qolumu kəsərəm" deməz.

Halbuki təkamülçülərin üslubu çox fərqlidir. Çıxışlarından, ya da izahatlardan aydın olan həmin kəslər, bir elm adamından çox, dinini hər şərtdə və vəziyyətdə qoruyacağına dair and içmiş bir adam

havasındadırlar. Bu səbəblə də izahatlarında heç bir şəkildə elmi metod izlənilməməkdə, elmi izahat istifadə edilməməkdir. Kimsə aparılan təcrübələrdən, əldə edilən dəlillərdən bəhs etməməkdə, ortada metafizik elementlər daşıyan sözlər və anlayışlar gəzməkdədir. Üstəlik bu kəslər təkamül mövzusunda dünyaya gəlmiş olan ən şöhrətli adlardır. İstifadə edilən sözlər bir araya gətirildiyində isə ortaya çox maraqlı bir mənzərə çıxmaqdadır: "Təkamüllü doqma!", "Elmi din!", "Təmin edici inanc!", "Təkamül əfsanəsi!", "Bugünkü insanlarının dünya görüşü!", "Yayılma üsulu!", "Həqiqətin bütünü!", "Hər şeyi işıqlandıran işıq!", "Metafizik inanış!", "Metafizik bir araşdırma proqramı!", "Bütün düşüncə sistemlərinin izləməsi lazım olan bir orbit!"...

Təkamül ədəbiyyatını bir az daha araşdırsaq təkamül nəzəriyyəsinin dini xarakterini və bütün ictimai və hətta psixoloji hadisələrə qədər təkamülçü dünyagörüşünü ifadə edən bir çox örnəklə qarşılaşa bilərik. Təqdir etmək lazımdır ki, belə təmtəraqlı terminlər üçün kimsə elmilik iddiası edə bilməz. Sidney Universitetində bioloq olan L. C. Birch və Stanford Universitetindən bioloq P. R. Ehrlich bu təkamüllü doqmanı açıq şəkildə dilə gətirməkdədirlər:

"Təkamül nəzəriyyəmiz... hər hansı bir müşahidə tərəfindən rədd edilə bilməyəcək bir nəzəriyyə halına gəlmişdir. Ağla uyğun hər müşahidə ona uyğun hala gətirilə bilər. Buna görə "empirik elm xaricindədir"... Heç kim sınamağın yollarını düşünə bilməz. Hər hansı bir təmələ söykənməyən və ya mümkün olduğu qədər sadələşdirilmiş bir neçə laboratoriya təcrübəsinə söykənən düşüncələrdən daha çox etibarlılıq qazanmışdır. Bunlar, çoxumuzun təhsilimizin bir hissəsi olaraq qəbul etdiyi təkamüllü doqmanın hissəsi halına gəlmişlər."8

## Zəmanəmizin təkamülçüləri Darvindən daha sərtdir

Zəmanəmizin təkamülçülərinin bu mövhumatçı mövqeyi, şəxsən nəzəriyyəni ortaya atan Darvindən belə çox daha sərtdir. Darvin öz nəzəriyyəsini irəli sürərkən, özünə müəyyən bir "yanılma payı" buraxmış, "Növlərin mənşəyi" adlı kitabında tez-tez "əgər nəzəriyyəm doğrudursa..." deyə başlayan şərhlər etmişdir. Bu şərhlərdə Darvinin bəzi elmi meyarları qəbul etdiyi və nəzəriyyəsinin necə saxtalaşdırılacağına dair meyarlar təyin olunduğu görülür. Məsələn fosillər haqqında belə yazmışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birinə bağlayan saysız ara keçid növləri mütləq yaşamış olmalıdır... Bunların yaşamış olduqlarının dəlilləri də yalnız fosil qalıqları arasında ola bilər."9



Darvin bəhs etdiyi "saysız ara-keçid növləri" heç bir zaman tapılmamışdır və bunu zəmanəmizdəki bir çox təkamülçü paleontoloq da qəbul etməkdədir. Bu vəziyyətdə Darvinin "əgər nəzəriyyəm doğrudursa" şəklindəki şərtinə baxaraq, nəzəriyyənin rədd edilməsi lazımdır (Darvin bu gün yaşasa, bəlkə də buna görə nəzəriyyəsini rədd edəcəkdi).

Halbuki dövrümüzün təkamülçüləri, bu mövzuda fövqəladə laqeydlik və mövhumatçılıq göstərməkdədirlər. Türkiyədəki darvinist kütlələrin ən qabaqcıl nəşr orqanlarından biri olan "Elm və Utopiya" jurnalında, dr. Ümit Sayın tərəfindən yazılan bir məqalədə, Darvinin "əgər nəzəriyyəm doğrudursa... qalıqları mütləq fosil qalıqlarında tapılmalıdır" dediyi ara-keçid formaları üçün belə yazılmaqdadır:

"Arxeopteriksin uçan bir dinozavr olmasının təkamül qaydasının doğruluğu və etibarlılığı baxımından çox əhəmiyyəti yoxdur. Heç bir keçid fosili tapılmasa belə bu təkamül qaydasını çökdürməz... Fərz edək ki, hələ heç bir fosil tapa bilmədik; bu bütün ara canlıların itdiyini, təbiətə qarışdığını göstərər.... Deyək ki, bütün fosillər boş çıxdı! Bu belə təkamül qaydasını çökdürməz, çünki fosillər, Arxeopteriksin və digər ara-keçid heyvanları yalnız mexanizmlərin izahı üçün lazımlıdır."10

Yəni yazıçı, "heç bir fosil dəlili tapa bilməsək də, təkamülə olan inancımızı qoruyarıq" deməkdədir. Darvin belə bu mövzunu nəzəriyyəsinin doğru olub olmadığının ən əhəmiyyətli meyarlarından biri olaraq ifadə etmişkən, həmin təkamülçü yazıçının bu meyarını bir kənara qoyaraq, "hər nə cür olursa olsun təkamülə inanmaq" qətiyyətini göstərməsi son dərəcə maraqlıdır. Bu vəziyyət, darvinizmin hər cür elmi meyardan uzaq, kor-koranə bir inanc olduğunun göstəricisidir.

## İntellektual diktatorluq

Yuxarıda təkamülçülərin söylədikləri bu xəyali sözlər, öz inanclarına görə, digər dinlərə görə xəyali vəziyyətə gətirir. Bu səhv düşüncəyə görə təkamül tək "obyektiv həqiqət"dir və təkamülçülər bu yalanın verdiyi güclə digər dinləri də özlərinə tabe olmağa dəvət etməkdədirlər. Təkamülçü bir anlayışa görə, digər dinlər, əgər təkamülü və onun ortaya çıxardığı anlayışları qəbul etsələr, "əxlaqi doktrina" olaraq yaşamalarına icazə veriləcək. Neodarvinist axının ən əhəmiyyətli bir neçə adamdan biri olan Corc Gaylord Simpson belə ifadə edir:

"Əlbəttə dini olaraq təyin olunan və dini duyğulara söykənən və hələ varlıqlarını qoruyan bəzi inanc sistemləri vardır. Bunların təkamüllə uyğunlaşmalarında qəti söz gedə bilməz və dolayısilə emosional təsirlərinə baxmayaraq, intellektual olaraq müdafiə olunmaları mümkün deyil. Ancaq emosional sahədə qalmaları şərti ilə, mən bunların təkamüllə bir yerdə var ola biləcəklərini müdafiə edirəm. Bir başqa ifadə ilə, təkamül və doğru din, bir-birləri ilə uyğunlaşa bilərlər."11

Bu, təkamül və onun üzərində yaranan elmi nəzəriyyələr, digər dinləri mühakimə etmə haqqına malik olduğunu göstərir. Bu dinlərin hansılarının, ya da hansı açıqlamalarının doğru din olaraq qəbul ediləcəyinə qərar vermək də yenə təkamül dininə düşəcək. Həmin ön mühakiməli düşüncəyə görə, doğru din deyilən şey yalnız insanlar arasındakı əxlaq meyarlarını ifadə etmək məsuliyyətini daşıyan nəzəriyyə ola bilər.

Bu avtoritar yanaşmaya, yəni insanların qəbul etdikləri doğruları digər insanlara qəbul etdirmə mövzusunda təzyiq etmələrinə nümunə Quranda bəhs edilməkdədir. Quranda qədim Misir Fironu izah edilərkən, öz

xalqına "...Mən sizə yalnız öz fikrimi bildirir və doğru yolu göstərirəm!.." (Mömin surəsi, 29) dediyi diqqət çəkilir. Bu sözü zəmanəmizin təkamülçüləri də tez-tez tələffüz etdikləri bir məntiqdir. Təkamülçülər Fironla çox böyük bənzərlik göstərən bu cür yanaşmaları, təkamül nəzəriyyəsini insanlara təlqin edərkən, bir tərəfdən də elmi kütlələri təzyiq altında saxlayırlar. Bu təzyiq ilə təkamül sanki bir tabuya çevrilmişdir. Təkamülə inanmayanlar demək olar ki, qovulurlar. Məşhur anatomiya professoru Tomas Dwight, bu vəziyyəti "intellektual diktatorluq" olaraq xarakterizə edərək belə deyir:

"Təkamül sahəsində qurulmuş diktatura məsələdən kənarda olanların təsəvvür edə bildiklərindən daha çox despotik hala gəldi. Yalnız düşüncə sistemimizə təsir etməklə kifayətlənmir; eyni zamanda terror çağlarına bənzər təzyiqi də davam etdirir. Görəsən elm dünyası liderlərindən neçəsi düşüncələrini olduğu kimi açıqlaya bilirlər."12

Təkamül həqiqətən də çox böyük kütlələri təsiri atına alan batil bir dindir, lakin qəti olaraq elm deyil. Onsuz da, bu insanların ifadələri diqqətli olaraq araşdırılsa sətir aralarında onların da bir dindən bəhs etdikləri asanlıqla aydın olacaq. Əhəmiyyətli tarixçi Margorie Grenenin söylədikləri, bu baxımdan qiymətləndirildiyində təəccüblü deyil:

"Darvinizmin davam etməsi və hələ də insanların zehnində kök salmasının səbəbi onun "elm dini" olmasından qaynaqlanmaqdadır. Kiçik və təsadüfə söykənən səhvlərin xarici və bilavasitə müəyyənləşdirilməsi, həyatın, insanların, və insanın ən dərin ümid və ən yüksək müvəffəqiyyətlərinin ortaya çıxmasının təbiətşünas təkamülün ən fundamental daşları olduğu hesab edilməkdədir... Bəzi dəyişikliklərə məruz qalmış, ancaq təməldə hələ də eyni xüsusiyyətləri daşıyan Darvin nəzəriyyəsi, özünə ilahi bir şövqlə inanan tərəfdarlarının təbliğ etdiyi din

halına gəlmişdir və nəzəriyyəyə şübhə ilə baxan elmiliyə yetəri inancı olmayan ağlı qarışıq insanlar olduğunu düşünməkdədirlər."13

Məhz Darvinizm, tərəfdarlarının məruzələrində, yazılarındakı və düşüncələrindəki bütün bu dini elementlərə baxmayaraq, hələ də insanlara elmi nəzəriyyə olaraq təqdim edilməkdə, ortada heç bir elmi dəlil olmadığı halda insanlar bu nəzəriyyəyə kor-koranə inandırılmaqdadırlar. Təkamülçülərin bu mövhumatçı yanaşmalarının səbəbi isə, təkamülü tərk etdiklərində qarşılaşacaqları həqiqətdən qaçmalarıdır. Çünki bu həqiqət yuxarıda da ifadə etdiyimiz kimi kainatı və bütün canlıları Allahın yaratdığı həqiqətidir. Bu isə, həmin elm adamlarının sahib olduqları materialist və ateist anlayışı baxımından qəbul ediləcək vəziyyət deyil.

Buna görə də, bu batil dinin dünya üzərindəki zərərli təsirinin fərqinə varıb, batilə qarşı "həqiqətlərin və doğruların" tərəfində olmaq, ağıl və vicdan sahibi insanlar üçün son dərəcə əhəmiyyətlidir. Bu bütpərəst dinin ağıldan kənar nəzəriyyəsini daha yaxından tanımaq isə doğruların tərəfində olmağın və batili etibarsız etmənin ilk addımıdır. Bunun ardından yaradılış həqiqətini bütün dəlilləri ilə ortaya qoymaq, Allahın "Əksinə, Biz haqqı batilin üzərinə qoyarıq, o da onu yox edər. Bir də görərsən ki, batil yox olmuşdur..." (Ənbiya surəsi, 18) ayəsində bildirdiyi kimi bütün bu batil dinləri yox edəcək.

İKİNCİ HİSSƏ

# Darvinizm dininin mənşəyi

**“Sokratdan əvvəl yaşamış Yunan Miletli filosoflar, kainatın yaranması ilə əlaqəli təkamül anlayışlarını Misirdən və Babildən və ya Şumerin çox qədim din xadimlərindən götürmüşlər.... Buna görə təkamül heç bir şəkildə müasir “elmi” kəşf deyil, lakin tarixin əvvəlinə aid Allaha qarşı dünya dininin dövrümüzdə yenidən canlanmasıdır... Bu nəzəriyyənin başlanğıcını Çarlz Darvin və onun yaxın atalarına söykəmək adətinin olmasına baxmayaraq, bu fikrin təməl şəkli, yazılı tarixin təməlinin başlanğıcına qədər uzanmaqdadır.”**

## Ernest Abel

**(Abel, Ernest L., “Ancient Views on the Origin of Life” (Farleigh: Dickinson University Press, 1973) səh. 15**

Hər hansı bir adama “Din nədir?” deyə soruşsan, verəcəyi cavab böyük ehtimalla dinin insanları Allahın bildirdiyi doğru yola, mütləq xeyirə aparan ilahi qanunlar olduğu olacaq. Ancaq indi dünya üzərində var olan dinlərin bir çoxu bu tərifə uyğun gəlməməkdədir. Hal-hazırda yer üzündəki çox sayda dini başlıca iki qrupa ayıra bilərik; müsəlmanlıq, xristianlıq, musəvilik kimi Allahın vəhyinə və tövhid inancına söykənən və Allahın elçiləri vasitəsi ilə insanlara bildirdiyi haqq dinlər (musəvilik dininin müqəddəs kitabı Tövrat, xristianlıq dininin müqəddəs kitabı isə İncildir. Ancaq Rəbbimizin insanlara hidayət rəhbəri olaraq göndərdiyi bu iki müqəddəs kitab, hz. Musa və hz. İsaya vəhy edilmələrindən sonra təhrif edilmiş, orijinal hallarından uzaqlaşmışdır. Buna görə də, bu cümlədə keçən “haqq dinlər” ifadəsi ilə, xristianlıq və musəvilik dinlərinin ilk göndərildikləri halları nəzərdə tutulmaqdadır), digər

tərəfdən də insanlar tərəfindən ortaya atılan və bir çox xurafatları olan batil dinlərdir.

Haqq dinlər insanları Allahın birliyinə, elçilərinə, müqəddəs kitablarına, axirətin, cənnət və cəhənnəmin varlığına inanmağa dəvət edərlər. Batil dinlər isə, haqq dinlərin tam tərsinə, insanları doğrulardan uzaqlaşdırar və batil inanclarla, totemlərlə, bütlərlə, minlərlə qəribə nəzəriyyə ilə, qəribə etiqadlarla, cadu ilə, biri-birindən korlanmış məzhəblərlə, adət və ənənələrlə dolu bir həyata sürüyərlər. Bu dinlərə bağlananlardan bəzisi totemlərə sitayiş edir, bəzisi günəşə ibadət edir, bəzisi "yadplanetlilər"ə inanır, daşdan, taxtadan bütlərdən mədət umur, onların qarşısında ayinlər edir, hədiyyələr təqdim edir, onları xoşbəxt etməyə çalışırlar. Şimşək çaxdığında guya göy tanrısının hirsləndiyinə, yağış yağdığında da ağladığına inanarlar. Bu cür inanclara sahib insanlar Quranda "müşrik" (Allaha ortaq qoşan) olaraq adlandırılırlar, Qərb ədəbiyyatında isə "bütpərəst" olaraq adlandırılarlar. Bu inanca sahib insanların həyatında ağılın, vicdanın və məntiqin yeri yoxdur.

Batil dinlərin, həyatın yaranması və canlı növlərinin varlığına istiqamətli dedikləri izahlar da eyni cahil yanaşmanın davamıdır. Ümumi inanış kainatın və bütün canlılığın havadan, sudan, ya da atəşdən meydana gəldiyi, ya da kosmosdan gəldiyi istiqamətindədir, bir başqa inanış da kainatın hər zaman var olduğu və sonsuza qədər də var olacağı istiqamətindədir. Bütpərəst dinlər bütün kainatın sitayiş etdiyi taxta və daşdan bütlər tərəfindən var edildiyinə inanırlar. Bu azğın inanışa görə hər bir büt kainatın bir hissəsini var etmiş və öz var etdiyi hissəyə də hakim olmuşdur; guya göy tanrısı səmada, dəniz tanrısı sularda, yer tanrısı insanlar arasında hökm etməkdədir (Allahı tənzih edirik).

Dinlər tarixi müqayisəli olaraq araşdırıldığında bir çox batil dinin bir-birindən təsirləndiyi, gərək inanışlarında, gərəksə nəzəriyyəsində çox

əhəmiyyətli bənzərliklər olduğu görülür. Qədim Yunan və Mesopotamiya dinləri kimi çox qədimdə ortaya çıxan bütpərəst dinlər, dövrümüzdəki bir çox batil dinin mənşəyini meydana gətirmişdir, bu dinləri nəzəriyyə ilə bəsləmişlər. Bu dinlərdən təsirlənib, eyni dövrlərdə cücərməyə başlayan bir batil din də, dini istiqamətinə əvvəlki hissədə diqqət çəkdiyimiz "Darvinizm dini"dir.

Darvinizm dini ilə digər batil dinlər arasında gərək kainatın və canlıların meydana gəlməsinə verilən cavablar, gərəksə ümumi nəzəriyyələr və inanclar mövzusunda çox böyük bənzərliklərdir. Yəni darvinizm insanların böyük hissəsinin inandığı kimi elmi həqiqət, təcrübələrə və müşahidələrə söykənən möhkəm bir qayda deyil. Darvinizm, elmdən kənar təməl üzərinə oturdulan bir neçə min illik yalandır. Bu səbəblə kitab boyunca batil darvinizm dininin ilk ortaya çıxışı, qurucusu, qondarma müqəddəs kitabı, missionerlik anlayışı və digər dinlərlə əlaqələri araşdırılarkən, digər batil dinlərlə müqayisə ediləcək və təəccüblü bənzərliklərə diqqət çəkiləcək.

## Darvinizm dininin digər batil dinlərdən fərqi yoxdur

Daha əvvəl də vurğuladığımız kimi darvinizm 19-cu əsrdə elm adamlarının və Çarlz Darvinin həvəskar tədqiqat və müşahidələri nəticəsində kəşf edilən və elmi dairələrə təqdim edilən bir nəzəriyyə deyil. Mənşəyi çox qədimdə yaşamış olan materialist filosoflara söykənməkdədir. Darvinist inanışlarla ilk olaraq bundan bir neçə min il əvvəl var olan çox tanrılı və materialist Şumer və Yunan dinlərində qarşılaşmaq mümkündür. Bu səbəbdən Çarlz Darvin, təkamül ideyasını ilk ortaya atan adam deyil, bu inancın ümumi əsas və etiqadlarının əsas çərçivəsini çəkən, nəzəriyyəsini şəkilləndirən, daha sonra da təsis edən həvəskar tədqiqatçıdır.



Bütpərəst şumerlərin Allahı inkar edən və canlıların təsadüfi təkamül prosesi ilə meydana gəldiyini ifadə edən kitabələri darvinizm dininin bel sümüyünü meydana gətirən izahlardır.14 Şumer kitabələri araşdırıldığında, ilk başda bir su qarışığından bəhs edildiyi və bu su qarışığının içərisindən birdən-birə Lahau və Lahamu adlı qondarma tanrıların ortaya çıxdığı iddiası görülür (Allahı tənzih edirik). Bu batil inanışa görə, ibadət edilən bu bütlər guya əvvəlcə özlərini var etmişlər, daha sonra da təkamülləşərək digər maddələri və canlıları meydana gətirmişlər. Yəni canlılıq cansız su qarışığından birdən-birə meydana gəlmişdir. Buradakı vurğu "maddə və kainatın ilk olaraq sudan ortaya çıxdığı və canlıların cansız maddələrdən meydana gəldiyi" inancını müdafiə edən təkamülçü dünyagörüşü ilə çox böyük uyğunluq göstərməkdədir. Bu səbəbdən kainatın təkamülləşmə prosesi meydana gəldiyinə dair batil inanc şumer dinlərində də var.





Misir dinləri tarixi araşdırıldığında da bənzər batil inanışlarla qarşılaşırıq. Hər hansı elmi dayağı olmayan bu axmaq anlayışa görə "İlan, qurbağa, soxulcan və siçanların, su basqınları ilə daşan Nil çayının palçığından yarandığına"15 inanılardı. Yəni Misir dinlərində də Yaradıcı inkar edilmiş, "canlıların təsadüflər nəticəsində palçıqlardan" yarandığı

inanılmışdı. Bununla yanaşı Babil və misirlilərə aid qondarma yaradılış hekayələrində də "yer üzünün və həyatın ortaya çıxdığına inanılan ilk dəniz" fikri yer almaqdadır.16



Bu düşüncənin artıq tarixə qarışdığını və qədim sivilizasiyalarla birlikdə yox olduğunu sanmaq çox böyük yanılma olacaq. Çünki dövrümüzdə də təkamülçülər eyni məntiqi müdafiə etməkdə və "ilk dəniz" ya da "su qarışığı" fikrini, "ibtidai şorba" adı ilə elm dünyasına qəbul etdirməyə çalışmaqdadırlar. Təkamül nəzəriyyəsinin bu iddiasına görə, təxminən dörd milyard il əvvəl ibtidai yer atmosferində canlılığın varlığı üçün lazım olan karbon və fosfor kimi bir çox cansız kimyəvi maddə ən uyğun şərtlərdə və ən uyğun miqdarlarda, təsadüfü bəzi faktorların təsiri ilə suda bir yerə gəlmişlər, bu zaman dövrəyə ildırımlar, fırtınalar və sarsıntılar girmiş, canlılığın ilk element olan amin turşularını meydana gətirmişlər. Bu amin turşuları yenə eyni təsadüflərin nəticəsində zülalları, bu zülallar hüceyrələri meydana gətirir, bu təsadüflər zənciri davam edər və nəticədə insana çatır...



Halbuki cansız maddələrin bir yerə gələrək canlılığı meydana gətirə biləcəkləri iddiası, bu günə qədər heç bir təcrübə, ya da müşahidədə təsdiqlənməmiş, elmdən kənar iddiadır. Hər canlı hüceyrə, bir başqa canlı hüceyrənin çoxalması ilə meydana gələr. Dünya üzərindəki heç kimsə, ən inkişaf etmiş laboratoriyada belə, cansız maddələri bir yerə gətirərək canlı bir hüceyrə yaratmağı bacara bilməmişdir. Bu isə ilk hüceyrənin mütləq surətdə yaradıldığını, sonsuz güc və qüdrət sahibi

olan Rəbbimizin ilk hüceyrəni yoxdan var etdiyini bizlərə göstərməkdədir.

Kompleks ayinləri və bütpərəst nəzəriyyə ilə Cənubi Asiyada çox geniş kütlələri təsiri altına alan Hinduizm də "bütün canlıların okeanlardan ortaya çıxdığı" yanılması üzərinə qurulmuşdur. Əfsanəvi izahat və əfsanəvi şəxsiyyətlərlə bəzəkli hindu nəzəriyyəsi, Riqveda və Atarvaveda kitabələrində də bu inanc geniş şəkildə izah edilməkdədir. Bir Yaradıcının var olduğu həqiqətini rədd edən azğın Hindu fəlsəfəsinə görə kainat guya "prakriti" adı verilən böyük, yumru bir maddədən yaranmışdır. Yenə eyni batil inanca görə, canlı cansız bütün maddələr bu ilk maddədən təkamülləşərək meydana gəlməkdə və təkrar prakritiyə çevrilməkdə, və eyni təkamüllü proses yenidən başlamaqdadır.17 Yəni guya bütün kainat bu cansız ilk maddədən meydana gəlməkdədir.

Canlılığın ilk olaraq necə ortaya çıxdığı sualı darvinizm dininin də ən böyük dilemmalarından biridir. Buna görə də, təkamülçülər bu suala ümumiyyətlə cavab verməməyə çalışırlar. Çünki verə biləcəkləri ən konkret cavab, yuxarıda da nümunə verildiyi kimi, eradan əvvəlki batil dinlərin verdikləri cavablardan fərqli deyil. Onsuz da darvinizmin inkişaf etdiyi dövrdə də canlılığın meydana gəlməsi ilə əlaqədar batil inanclar hakim idi. Bu insanlara görə milçəklər tərdən, qurbağalar palçıqdan, qarışqalar şəkərdən meydana gəlirdilər.



Bu axmaq inanclardan biri də "təkamülçü tarixi"nin ən qəribə inanclarından biri olan "Ümidli canavar" (Hopeful Monster) nəzəriyyəsidir. Bəzi təkamülçülər, tapılacağına ümid etdikləri keçid formalarının olmamasına, növlər arasında dəyişiklik bir anda meydana gəldiyinə görə təkamül üçün keçid formalarına ehtiyac olmadığına qərar verdilər və nəticədə canavar nəzəriyyəsini irəli sürdülər. Ümidli canavar nəzəriyyəsinə görə canlılığın meydana gəlməsi, şəkərdən qarışqanın meydana gəldiyini iddia edən inancdan fərqli deyil. Bu axmaq nəzəriyyəyə görə ilk quş bir sürünən yumurtasından birdən-birə çıxmış, daha sonra eyni şəkildə təsadüfən başqa bir yumurtadan çıxan quş ilə birləşmiş və beləcə quş sinifi meydana gəlmişdir. Bu nəzəriyyənin bir bənzəri də Çarlz Darvinin suda çox üzən ayıların zaman keçdikcə balinalara çevrildiyi iddiasıdır. Halbuki bu gün elmi həqiqətlər Darvinin bu iddiasının nə qədər elmdən uzaq, boş söz olduğunu açıq şəkildə gözlər

önünə sərməkdədir (Bu mövzularda geniş məlumat üçün baxın: “Təkamül yalanı”, Harun Yəhya; “Həyatın həqiqi mənşəyi”, Harun Yəhya)



## Eyni bütpərəst anlayış hələ də davam etməkdədir

Bütpərəst dinlərin ən əhəmiyyətli xüsusiyyətləri daşdan, taxtadan oyulmuş, cansız, danışma qabiliyyəti olmayan, qısacası heç bir şeyə gücü çatmayan heykəllərə, obyektlərə güc ithaf etmələri və onlardan mədət ümid etmələridir. Hətta bu inanca sahib olan kəslər, cansız bütlərin bütün kainatı və canlıları var etdikləri, bütün kainatı hərəkət etdirdikləri, sağlamlığı, bərəkəti və ruzini onlardan tapdıqları yanılmasına qapılmış, onlardan kömək istəmişlər (Allahı tənzih edirik). Lakin işin maraqlı tərəfi, bu inanışların zəmanəmizin təkamülçülərində də özünü göstərməsidir. Eyni keçmiş dövrdə yaşamış olan bütpərəstlərin cansız heykəlləri kainatın və canlılığın var olmasında guya güc sahibi gördükləri kimi, təkamülçülər də şüursuz atomlardan ibarət olan cansız maddələrin bir gücə sahib olduqlarını zənn edirlər. Bu cansız maddələrin təsadüflər nəticəsində bir yerə gələrək özlərini yaratdıqlarını və son dərəcə kompleks və qüsursuz xüsusiyyətlərə sahib olan canlıları meydana gətirdiklərini iddia edərlər. Bu bütlərin ən əhəmiyyətlisi isə keçmişdən bəri heç dəyişməyən, yalnız fərqli adlarla adlandırılan "Təbiət" ya da "Təbiət Ana"dır.

Təkamülçülər təbiətdə baş verən hər cür hadisəni, təbiət hadisələrini "Təbiət ana"dan bilərlər (Allahı tənzih edirik). Bu batil inanca görə bir qasırğa, zəlzələ, sel ya "təbiət ananın qəzəbi" ya da "təbiətin möcüzəsi"dir. Amma "təbiət" deyilən gücün nə olduğu mövzusunda kimsənin hər hansı fikri, ya da bir izahı yoxdur. Eyni "Təbiət ana" inanışı keçmiş qövmlərdə fərqli ad olaraq keçər. Bu dəfə qarşımızdakı, Yunan mifologiyasındakı adı ilə "Geya", ya da bütpərəst dinlərdə "Bərəkət tanrısı"dır. Təkamülçülər bu simvolları və adları ortadan qaldırıb, eyni gücü şüursuz atomlara verirlər.



Necə ki, bunu açıq şəkildə ifadə etməkdən çəkinməməkdədirlər. Yunan mifologiyasındakı "yerin tanrısı Geya", guya elmi bir "nəzəriyyəyə" ilham qaynağı olmuşdur. Ceyms Lovelock adlı təkamülçü elm adamı tərəfindən ortaya atılan və "yer planetinin canlı varlıq" olduğunu müdafiə edən nəzəriyyə, "Geya nəzəriyyəsi" olaraq bilinməkdədir. Bu isə təkamülçülər tərəfindən "nəzəriyyə" deyə qarşıya qoyulan anlayışın əslində klassik bütpərəst dinlərin batil inanışı olduğuna gözəl nümunədir.

Təsadüfləri, cansız maddələri, şüursuz atomları yaratma gücünə sahib varlıqlar zənn etmək əlbəttə ki, əhəmiyyətli məntiq pozuqluğudur. Bütpərəstlər necə cansız bütlərin bütün varlıqları yaratdıqlarına inanırlarsa, təkamülçülər də cansız maddələrin öz-özlərinə canlı varlıqları meydana gətirdiklərinə inanmaqdadırlar. Bu inancın mənşəyi, cansız maddələri ağıl və iradə sahibi, qərar verə bilən və bu qərarları tətbiq edə bilən varlıqlar olaraq qəbul etməyə qədər getməkdə və beləcə əslində ilah olaraq görməkdədir.

Allah Quranda, Özündən başqa varlıqlara sitayiş edən, cansız bütləri ilah edən insanların varlığından və elçilərinin bu insanlarla olan mübarizəsindən danışmaqdadır. Quranda deyilən bütpərəst qövmlərdən biri hz. İbrahimin qövmüdür:

> *Bir zaman o, atasına demişdi: "Atacan! Eşitməyən, görməyən və sənə heç bir fayda verə bilməyən şeylərə (bütlərə) nə üçün ibadət edirsən?*
>
> **(Məryəm surəsi, 42)**



Ayədə də bildirildiyi kimi hz. İbrahimin atası və qövmü, öz əlləri ilə yaratdıqları, heç bir şeyi yaratmağa gücü çatmayan cansız maddələri ilah olaraq qəbul etmişdilər. Hz. İbrahim dövründə bu cür ibtidai inanca sahib olan bütpərəstlər öz əlləri ilə düzəltdikləri cansız heykəllərin ruzi, şəfa, əzab və bərəkət vermə kimi xüsusiyyətlərə sahib olduqlarını zənn edir və onlara ibadət edirdilər (Allahı tənzih edirik).

## Günəş dini

İndiki təkamülçülər ilə keçmiş bütpərəst cəmiyyətlər və inanclar arasındakı digər oxşarlıq, hər iki qrupun Günəş ibadətinə söykənən dini inancın olmasıdır.

Günəşə sitayiş etmək, tarixin ən qədim dövrlərindən bəri var olan azğın bir inancdır. Günəşin istilik və işıq təmin etdiyini görən insanlar, bu vəziyyət qarşısında varlıqlarını bu göy cisminə borclu olduqları zənninə qapılmışlar və Günəşi ilahlaşdırmışlar. Bu azğın inanc, tarixdə bir çox cəmiyyəti Allahın haqq dinindən uzaq tutmuşdur. Quranda bu mövzuya toxunulur və hz. Süleyman dövründə yaşayan Səba xalqının Günəşə sitayiş etdikləri belə izah edilər:

> *Onun və qövmünün Allahı qoyub günəşə səcdə etdiklərini gördüm. Şeytan əməllərini özlərinə gözəl göstərib onları haqq yoldan döndərmişdir. Buna görə də onlar haqq yolu tapa bilmirlər. Göylərdə və yerdə gizli olanı aşkar edən və həm gizlində, həm də aşkarda etdiklərini bilən Allaha səcdə etməmələri üçün (şeytan belə etmişdir).*
>
> **(Nəml surəsi, 24-25)**




Diqqət yetirilsə, insanların Günəşə tapınmaları, tam bir cəhalətin və ağılsızlığın nəticəsidir. Günəşin dünyaya istilik və işıq çatdırdığı doğrudur, ancaq bunun üçün şükür ediləcək varlıq, Günəşi yaratmış olan Allahdır. Günəş, heç bir şüuru olmayan maddə yığınıdır və bir zamanlar yox ikən, Allah onu yoxdan yaratmışdır. Gələcəkdə yanacağı tükənəcək və sönüb gedəcək. Bəlkə bundan əvvəl Allah Günəşi yox edəcək. Allah Günəşi də, bütün digər göy cisimlərini də yoxdan yaratmışdır və

dolayısilə bütün bu varlıqlara görə təriflənib ucaldılacaq Allahdır. Bir ayədə bu həqiqət belə açıqlanar:

> *Gecə, gündüz, günəş və ay Onun (varlığının və qüdrətinin) əlamətlərindəndir. Əgər yalnız Ona (Allaha) ibadət edirsinizsə, günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin!*
>
> **(Fussilət surəsi, 37)**



Maraqlı olan, dövrümüzün təkamülçülərinin də qədim Günəş dinlərinin təməl inancını təkrarlayaraq, varlıqlarını Günəşə borclu olduqlarını müdafiə etmələridir. Təkamülçü qaynaqlara baxıldıqda, dünya üzərindəki bütün canlılığın qaynağının Günəş olaraq göstərildiyi görülür. Təkamülçülərə görə Günəşdən gələn şüalar, dünya üzərindəki ilk canlılığın başlamasını təmin etmişdir. Daha sonrakı canlı növlərini meydana gətirən də yenə Günəş enerjisi və Günəş şüalarına görə yaranan mutasiyalardır. Təkamülçülərin bu mövzudakı yanaşmasını ən yaxşı yekunlaşdıran adam isə, məşhur amerikalı ateist, din düşməni və təkamülçü Carl Sagan olmuşdur. Sagan "Cosmos" adlı kitabında, "əgər insanlar özlərindən böyük bir şeyə sitayiş edəcəklərsə bu Günəş olmalıdır" deyə yazmış və belə əlavə etmişdir: "Atalarımız Günəşə tapınırdılar və bu şəkildə heç də axmaqca bir iş etmirdilər."18

Carl Saganın müəllimi olan təkamülçü astronom Harlow Shapley isə, "bəziləri başlanğıcda Allah vardı deyir, mən isə başlanğıcda hidrogen vardı deyirəm" sözü ilə tanınmaqdadır. Yəni Shapley, var olan tək şeyin hidrogen olduğuna və bu qazın zaman keçdikcə öz-özünə insanlara, heyvanlara, ağaclara çevrildiyinə inanmaqdadır.

Diqqət yetirilsə, bütün bu axmaq təkamülçü fikirlərin təməlində, maddi varlıqların və təbiətin ilahlaşdırılması inancı yatmaqdadır. Təkamülçülərin dini, maddəyə və təbiətə tapınmaqdır.

*Ağıl sahibi insan isə, kainatın və təbiətin cansız və şüursuz maddələrin bir əsəri olmadığını, əksinə gördüyü hər detalda fövqəladə bir ağıl, plan və sənət olduğunu anlayar. Beləliklə Allahın varlığını və möhtəşəm yaradışını qavrayar. Ancaq dövrümüzdə bir çox insan, bu həqiqətə qarşı kordur və maddəyə sitayiş etməyə davam etməkdədir (Allahı tənzih edirik). Çünki, Səba xalqı nümunəsində olduğu kimi, "...Şeytan əməllərini özlərinə gözəl göstərib onları haqq yoldan döndərmişdir. Buna görə də onlar haqq yolu tapa bilmirlər.*

**(Nəml surəsi, 24)**

## Bütün batil dinlər Allahı inkar etmə azğınlığına düşər

Yuxarıda saydığımız təkamülçü anlayışa sahib batil dinlərin yanında Konfutsiçilik, Taoizm, Buddizm də təkamülçü din anlayışı üzərinə quruludur. Digər batil və bütpərəst dinlər kimi bir Yaradıcı inancını rədd edən buddist inancına görə də kainat yaradılmamış, təkamülləşmişdir. Bundan əlavə, bugünkü Buddizm eyni təkamülçü anlayışı qəbul edir.19



Göründüyü kimi, bu batil və irrasional inanclar Darvinizm dinin əsas inancları ilə böyük paralellik göstərir: Bir Yaradıcının varlığının inkarı (Allahı tənzih edirik), canlılığı təsadüfən meydana gətirən ilk maddənin ümumiyyətlə su, ya da dəniz olduğu, canlıların cansız maddələrdən təsadüflər nəticəsində təkamülləşərək var olduqları və digər canlı növlərini meydana gətirdikləri, canlıların nəzarətsiz təsadüflər nəticəsində meydana gəldikləri...

Batil dinlərin təməlini meydana gətirən bu inancların etibarsızlıqları ötən 20-ci əsrdə elmi kəşflərlə birlikdə bir-bir ortaya qoyulmuşdur. Bu gün heç bir neytral alim bu maddələri müdafiə etmir. Çünki elmin ortaya qoyduğu həqiqət, canlıların üstün ağıl və qüsursuz plan nəticəsində yaradıldıqları həqiqətidir. Bəzi ateist elm adamlarının bu həqiqəti qəbul etməmələrinin səbəbi isə elmi qayğıdan çox, yuxarıda da izah etdiyimiz mövhumatçı yanaşmadır. Amerikada elm adamları arasında gedərək yayılan və "yaradılış həqiqətini" müdafiə edən axının qabaqcıl adlarından biri olan amerikalı biokimyaçı Michael J. Behenin də ifadə etdiyi kimi; "... şüurlu bir nizamı qəbul etmək, onlara istər istəməz Allahın varlığını qəbul etdirməyi xatırlatmaqdadır."20

Təkamülçü zehniyyətin əsla qəbul edə bilməyəcəyi həqiqət, Allahın varlığı və kainatı bir məqsədlə, qüsursuz şəkildə yaratdığıdır. Halbuki bir an olsun düşünmək, bu açıq-aşkar həqiqəti anlamaq üçün yetərli olacaq. Necə ki, Allah Quranın bir çox ayəsində insanları yaratdığı varlıqlar üzərində düşünməyə və bu varlıqlardan ibrət götürməyə çağırmaqdadır:

*Onlar başları üstündəki səmaya baxmadılarmı ki, Biz onu necə inşa edib bəzəmişik?! Onda heç bir yarıq (qüsur) yoxdur. Yer üzünü döşəyib orada sabit dağlar yerləşdirdik və hər növ gözəl bitki bitirdik. Bunları Allaha yönələn hər bir bəndə üçün ibrət və öyüd-nəsihət olsun deyə yaratdıq. Göydən bərəkətli su endirdik və onun vasitəsilə bağlar və biçilən dənələr (əkinlər) bitirdik. Həmçinin salxım-salxım tumurcuqları olan hündür xurma ağacları bitirdik. Bəndələrə ruzi olsun deyə! Biz o su ilə ölü bir məmləkətə can verdik. (dirilib) çıxış da belə olacaqdır.*

**(Qaf surəsi, 6-11)**



Ayələrdə bildirildiyi kimi, hər tərəfi əhatə edən sonsuz saydakı yaradılış dəlillərini araşdırıb, vicdanlarının səsini dinləyərək inkarçı və mövhumatçı düşüncələrdən özünü xilas edən elm adamları isə, Allahın varlığını qəbul etməkdə heç tərəddüd etməməkdədirlər. Amma bu

anlayışın təsirindən özlərini xilas edə bilməyən darvinistlər bütpərəst mədəniyyətlərdən qalma qəribə etiqadlara hələ də etibar etməkdə, üstəlik bunu ağıl və elmin gərəyi kimi göstərməyə çalışmaqdadırlar.

## Təkamül dininin ilk toxumlarını bütpərəst yunanlı mütəfəkkirlər atdılar



Əvvəlki hissədə də vurğuladığımız kimi son 1.5 əsrdir insanlara elmi həqiqət olaraq təqdim edilən Darvinizm dininin mənşəyi, materialist yunan filosoflarının batil inanclarına qədər uzanmaqdadır.

Yəni bu nəzəriyyə ilk ortaya atıldığında hər hansı elmi müşahidə, tədqiqat, ya da təcrübəyə ehtiyac duyulmamış, yalnız qədim batil dinlərdən bu günə gələn dini prosesin izləri davam etmişdir. Bunun ən əhəmiyyətli dəlili fizika qanunlarından, biologiyadan, kimyadan xəbərsiz olan bir çox yunanlı din filosofunun da Darvinin qaydası ilə üst-üstə düşən təkamül inancına sahib olmalarıdır. Aradan minlərlə il keçmişdir, amma təkamülçü dünyagörüşündə hər hansı dəyişiklik olmamışdır. Təkamülçü düşüncə, tarix boyunca bütün inkarçı və materialist fəlsəfələrin bel sümüyü olmuşdur.

Darvinizmin fikir qabaqcılları, miletli yunan filosoflarıdır. Fales, Anaksimandr və Empedokl kimi filosoflarının ən əhəmiyyətli xüsusiyyəti, canlı varlıqların yəni insan, heyvan və bitkilərin hava, od, ya da su kimi cansız maddələrdən özbaşına meydana gəldiklərini iddia etmələridir. Bu batil nəzəriyyələrinə görə ilk canlılar suda və birdən-birə, özbaşına ortaya çıxmış, bəzi heyvanlar zaman keçdikcə suyu tərk etmiş və quruya uyğunlaşma təmin etmişlər.

Milet məktəbində bu fikri əsas ortaya atmış mütəfəkkir Falesdir. Fales bir sahil şəhərində yaşamış, çox uzun müddət Misirdə olmuş və Nilin insan həyatı üzərindəki əhəmiyyətindən çox təsirlənmişdir.21 Buna görə də, canlıların sudan özbaşlarına yarana bildikləri düşüncəsinə qapılmışdır. Fales bu nəticəyə yalnız sadə mülahizələr və nəticələr hesabına gəlmişdir. Hər hansı bir təcrübə və ya elmi müşahidə etməmişdir. Yəni hər hansı elmi dayağı yoxdur. Daha sonra gələn miletli filosoflar da qaydalarını eyni məntiqlər üzərinə qurmuşlar.





Falesin ardınca gələn digər mütəfəkkir, onun tələbəsi Anaksimandr idi. Onun Qərb düşüncə həyatına daxil etdiyi iki böyük materialist anlayış vardı. Bunlardan birincisi kainatın sonsuzdan gəlib, sonsuza getdiyi, ikincisi isə Fales dövründə yavaş-yavaş şəkillənməyə başlayan canlıların bir-birlərindən təkamülləşdikləri fikridir. Hətta "Təbiət" adını daşıyan klassik şeiri, təkamül nəzəriyyəsinin izah edildiyi ilk yazılı əsərdir. Anaksimandr bu şerində heyvanların, günəş işığı ilə buxarlaşan

palçıqdan meydana gəldiyini yazmışdır. İlk heyvanların tikanlı və pulcuqlu qabıqlara sahib olduğunu və dənizdə yaşadığını düşünmüşdür. Bu balığa bənzəyən varlıqlar daha sonra dəyişib quruya keçmiş, pulcuqlu qabıqlarını tökmüş və insana çevrilmişdir.22 Anaksimandrin təkamül nəzəriyyəsinə gətirdiyi təməl isə fəlsəfə kitablarında bu şəkildə təsvir edilir:

...Başlanğıcda bütün varlıqlar, suda yaşayan varlıqlar idi. Sonradan suların çəkilməsi, quru hissələrinin yaranması ilə bu sularda yaşayan varlıqlar quruda yaşayan canlılar olaraq dəyişiklik keçirdi. Bu nəzəriyyə, təkamül nəzəriyyəsinin ilki, ya da başlanğıcı sayıla bilər.23

Anaximendresinkinə çox bənzər izahlara başqa qaynaqda rast gələrik: Çarlz Darvinin "Növlərin mənşəyi" adlı kitabı. Darvinin elmilik iddiasıyla ortaya atdığı təkamül nəzəriyyəsi ilə Qədim Yunanın bütpərəst mədəniyyəti içində yaşamış olan miletli filosofların izahatları arasında heç bir təməl fərq yoxdur.

Darvinin nəzəriyyəsinin ən əhəmiyyətli ünsürü olan "təbii seleksiya" anlayışı da yenə Qədim Yunan mənşəlidir. Təbii seleksiyanın növlər arasında bir həyat döyüşü olduğu tezisi ilə ilk qarşılaşdığımız adam Yunan filosofu Heraklitdir. Heraklitə görə canlılar arasında davam edən bir qarşıdurma vardır. Bu bir mənada, Darvinin təxminən 2500 il sonra yazdığı təbii seleksiya qaydasının mənşəyidir.



Fales və Anaksimandrdan daha sonra yaşamış olan Empedokl (e.ə. 495-435) isə su, hava, od və torpağın dəyişik nisbətlərdə və təsadüflər nəticəsində birləşərək, yer üzündə var olan hər şeyi meydana gətirdiklərini söyləmişdir. Təkamül nəzəriyyəsinin fəlsəfi mənşəyini sorğulayan "Philosophical Origins of Evolution" adlı kitabın yazıçısı olan David Skjaerlund, Empedoklesin maraqlı bir düşüncəsini dilə gətirər. Bu yazıçının bildirdiyinə görə Empedokles, "İnsanın əvvəlki bitki həyatından inkişaf etmiş olduğunu və bu prosesin reallaşmasında tək məsul faktorun təsadüf olduğunu" söyləyir.24 Qədim dinlərdə diqqət çəkilən bu "təsadüf" anlayışı Darvinizm dininin ən fundamental inancını, hətta ən əhəmiyyətli bütünü, meydana gətirməkdədir. Bütün canlıları var edən, onların

gələcəklərini planlayan bu şüurlu bütlə əlaqədar detalları kitabın sonrakı hissələrində araşdıracağıq.



Təkamül nəzəriyyəsinə və bu nəzəriyyəni təməl alan materialist fəlsəfələrə əhəmiyyətli bir qatqı da bir başqa yunanlı mütəfəkkir, Demokritdən gəlmişdir. Demokritə görə kainat atom deyilən kiçik hissələrdən meydana gəlmişdir və maddənin xaricində heç bir varlıq yoxdur. Ona görə atomlar başlanğıcdan bəri vardır, nə var olmuşlar, nə də yox olacaqlar. Maddənin əzəldən gəldiyini və əbədiyyətə gedəcəyini müdafiə edən Demokrit hər cür mənəvi inancı rədd edər və əxlaq daxil hər cür mənəvi dəyərin də atomlara sadələşdirilə biləcəyini müdafiə edir. Bu düşüncələri ilə həqiqi mənada ilk materialist filosof olaraq təyin olunan Demokrit, kainatda heç bir məqsəd olmadığını, hər şeyin kor bir zərurət içində hərəkət etdiyini iddia etməkdədir və ona görə hər şey öz-özünə meydana gəlmişdir. Bu saydıqlarımız bizə yenə zəmanəmizin təkamülçülərinin saxta ilahlarını, yəni şüursuz atomlarını xatırlatmaqdadır.



Kainatı, dünyanı, nəfəs aldığımız havanı, yediklərimizi, içdiklərimizi, bədənimizi, qısacası gözümüzlə qəbul etdiyimiz hər detalı meydana gətirən bu şüursuz atomlar, daha əvvəl də ifadə etdiyimiz kimi darvinist nəzəriyyədə çox əhəmiyyətli bir yer tutur. Bilindiyi kimi bütün canlılar karbon, hidrogen, oksigen, kalsium, maqnezium, dəmir kimi elementlərin atomlarından meydana gəlməkdədir. Bu səbəbdən insan da bu atomlardan meydana gəlir. Darvinizm isə bu atomların şüursuz

təsadüflər nəticəsində bir yerə gəldiklərini iddia edər. Bu axmaq iddiaya görə səbəbi müəyyən olmayan bir gücün təsiri ilə müxtəlif atomlar meydana gəlmiş, daha sonra bu atomlar təsadüfən bir yerə gələrək ulduzları, planetləri yəni bütün göy cisimlərini meydana gətirmişlər. Daha sonra yenə eyni atomların təsadüfü şəkildə bir yerə gəlməsi ilə son dərəcə kompleks quruluşda canlı hüceyrə meydana gəlmiş, sonra da atomlardan ibarət olan bu canlı hüceyrə guya təkamül prosesi keçirərək son dərəcə fövqəladə sistemlərə sahib canlıları və ən son mərhələdə də son dərəcə şüurlu olan insanı meydana gətirmişdir. Bu azğın inanca görə tam olaraq təsadüflər nəticəsində olan insan, yenə təsadüflər nəticəsində yaranan alətlərlə, məsələn bir elektron mikroskopu ilə özünü meydana gətirən atomları kəşf etmişdir. Məhz darvinizmin elmi tezis olaraq qarşıya qoyduğu tam olaraq budur.

Bu vəziyyətdə təkamül nəzəriyyəsi, açıq şəkildə hər bir atomu, guya yaratma gücünə sahib "ilah" olaraq qəbul etməkdədir. Ağıl və şüur sahibi insanı meydana gətirən atomların özlərinə aid şüurları və iradələri yoxdur. Amma təkamülçülər bir şəkildə bu cansız atomların bir yerə gəlib, məsələn bir insanı meydana gətirdiklərini, sonra da bu "atomlar birliyi"nin oxumağa, universitet bitirməyə qərar verdiyini iddia etməkdədirlər. Halbuki bütün təcrübə və müşahidələrimiz, şüurlu bir tənzimləmə olmadıqca maddənin əsla öz-özünü mütəşəkkil edə bilməyəcəyini, əksinə pozulmağa və nizamsızlığa doğru gedəcəyini göstərməkdədir. Bu səbəblə də, kainatda var olan heç bir şeyin bir təsadüf nəticəsində meydana gəlmədiyi, üstün bir şüur və iradənin varlığı ilə həyat tapdığı açıq bir həqiqətdir. Gərək insanın, gərəksə təbiətin hər detalında çox böyük bir ağılın və elmin isbatı görülməkdədir. Məhz bu elmin və ağılın sahibi, göylərin və yerin Rəbbi olan Allahdır.

Yuxarıda saydığımız filosoflarla yanaşı Darvinizm dininə əsl əhəmiyyətli qatqı, yunan filosof Aristoteldən gəlmişdir. Aristotelə görə, növlər sadə və

mürəkkəb bir iyerarxiyaya malikdir və nərdivanın pillələri kimi xətti cərgədə düzülmüşdür. Aristotel bu tezisinə "Scala naturae" adını verir. Məhz Aristotelin bu fikri 18-ci əsrə qədər Qərb düşüncə həyatını çox dərindən təsir edəcək və daha sonra da "Təkamül nəzəriyyəsi"nə çevriləcək olan "Böyük yaranma zənciri" (Scala naturae) inancının da mənşəyidir.



## Qədim bütpərəst mədəniyyətlərdən dövrümüzə gələn batil inanc: Böyük yaranma zənciri

Darvinizm dininin təməlini meydana gətirən bütün canlıların cansız maddələrdən təkamülləşərək inkişaf etdiyi inancı ilə, ilk olaraq "Böyük yaranma zənciri" (Great Chain of Being) adı altında yunanlı filosof Aristotelin izahatlarında qarşılaşırıq. Böyük yaranma zənciri təkamüllü inanışdır və Allahın varlığını inkar edən filosoflar tərəfindən çox rəğbət görmüşdür.

Yunan mənşəli, ilk canlının sudan çıxdığı şəklindəki inanış, zaman ərzində öz-özünə çoxalma anlayışına, oradan da Böyük yaranma zənciri inancına çevrilmişdir. 2000 il boyunca qəbul edilən "Scala Naturae"yə görə canlılar özbaşına meydana gəlmişdir və hər şey minerallardan orqanik maddəyə, canlılardan, heyvanlara, oradan bitkilərə və insanlara, buradan da guya "tanrılara" təkamülləşmişdir. Yeni orqanlar da bu ağıldan kənar inanca görə təbiətin ehtiyacına görə özbaşına meydana gəlməkdədir (Allahı tənzih edirik).

Heç bir elmi dayağı olmayan, əksinə bütün elmi həqiqətlərlə ziddiyyət təşkil edən, yalnız mücərrəd məntiqə söykənən bu inanışın bu qədər uzun bir dövr qəbul edilməsinin səbəbi isə elmi deyil, daha çox ideolojidir. Əvvəlki hissələrdə ifadə etdiyimiz Allahın varlığını inkara söykənən mövhumatçı yanaşma, bu batil inancın davam etməsini təmin etmişdir. Bu səbəblə də həmin inanış həmişə ad dəyişdirmiş, əlavələr edilmiş və son olaraq da "təkamül nəzəriyyəsi" adı ilə qarşıya qoyulmuşdur.

Böyük yaranma zənciri əvvəllər tamamilə fəlsəfi fikir olaraq ortaya atılmışdır və hər hansı elmilik iddiasında da olmamışdır. Ancaq canlıların

meydana gəlməsinə Yaradılış həqiqəti xaricində guya cavab tapmağa çalışanlar üçün Böyük yaranma zənciri sanki böyük həyat qoruyucusuna çevrilmiş və bu məqsədlə də elmi mühitə salınmışdır. Canlıların ölçüsünə görə yaranan və heç bir məntiqi prosesi izləməyən bu zəncirə görə bütün orqanizmlər üçün xətti bir davamiyyət mövcuddur. Ancaq ortaya atılan bu irəliləmə iddiasında tək dayaq həvəskar və səthi müşahidələrdir. Ortada nə bir təcrübə, nə də hər hansı bir tapıntı vardır. Bu boş sözə görə kiçik canlılar mərhələ-mərhələ böyük canlılara çevrilməkdədir. Məsələn bir böcək zaman keçdikcə özündən daha böyük başqa bir canlıya, bir it isə at, ya da zebr kimi bir canlıya çevrilməkdədir. Bu axmaq inanışa görə zəncir içində hər canlının bir yeri vardır. Məsələn daş, metal, su və havadan canlılara, canlılardan heyvanlara, heyvanlardan insanlara keçid əsnasında hər hansı bir qopuqluqdan bəhs edilə bilməz.



Ancaq bunu təkrar etməliyik; bu sıralamanın elmi məqsədəuyğunluğu heç vaxt nəzərə alınmamışdır. Canlıların fiziki xüsusiyyətləri, cansız maddədən canlıya keçidin necə olduğu, su canlılarının quruya necə uyğunlaşacaqları düşünülməmişdir. Dövrümüzdə təkamül nəzəriyyəsinin də ən böyük çıxılmaz vəziyyətindən birini meydana gətirən və növlər arasındakı keçidləri göstərməli olan ara formalar, bu zəncir içində qəti olaraq qeyd olunmur. Buna görə cansız maddə bir anda, təsadüfən canlıya çevrilməkdə, dəniz heyvanı birdən, heç bir səbəb yox ikən quru canlısı olmaqdadır. Bu canlıların bir-birlərinə necə çevrildiyi isə böyük bir müəmmadır. Çünki bu zəncir elmi müşahidədən çox, mücərrəd və səthi məntiq icra edir; yəni qədim filosoflarının heç bir elmi araşdırma etmədən ortaya atdıqları bir nağıldan ibarətdir.

Ancaq bütün bu məntiqsizliyə baxmayaraq Aristotel, bu xətti nərdivanın ən üstünə insanlardan təkamülləşən azğın bir Tanrı anlayışını qoymuşdur, və hər şeyi yoxdan var edən Allahın varlığını rədd etmişdir. Aristotel bu azğın təsiri ilə materialist Yunan filosoflarına böyük təsir göstərmişdir. "Scala Natura"nın qərb düşüncə dünyasına girməsi isə Humanizm axını və İntibahla birlikdə oldu. 15-ci əsrin əvvəllərində Qədim Yunan və latın dilində əsərlərin Avropaya aparılması ilə birlikdə, yunanlı materialist və bütpərəst fəlsəfələrə guya təməl təşkil edən bu mətnlər də Qərb fəlsəfə və düşüncə dünyasına girdi. Bu mətnlərdə ilk diqqəti çəkən şey Allahın varlığını inkar edən, materialist bir anlayışın hakim olması idi. Bu inkarçı düşüncəyə görə, insan özünü və içində olduğu dünyanı nəzarət etmə gücünə sahib idi və ölümdən sonra bir başqa həyat olduğu inkar edilirdi. Məhz Böyük yaranma zənciri də bu inkarçı inancın təməlini meydana gətirirdi. Bu azğın nəzəriyyəyə görə, insanlar təsadüflər nəticəsində və təkamül prosesi nəticəsində meydana gəlmişlər və bir maddə yığını olmaqdan başqa bir xüsusiyyətləri yoxdur. Yenə eyni batil nəzəriyyəyə görə, əxlaqi dəyərlərin, insani duyğuların heç

bir əhəmiyyəti yoxdur və insan yalnız yaşadığı gündən zövq almalı, özünü heç kimsəyə qarşı məsul hiss etməməlidir. Bununla yanaşı Aristotelin "Scala Natura"sındakı Tanrı anlayışı da zaman keçdikcə yox olmuş, humanizm axını ilə birlikdə ən üstün varlıq mərtəbəsinə insan qoyulmuşdu (Allahı tənzih edirik).

Məhz günümüzdəki materialist və ateist fəlsəfələrin təməlini meydana gətirən təkamül nəzəriyyəsi ilə, qədim bütpərəst materialist fəlsəfələrin həyat qaynağını meydana gətirən "Scala Naturae" arasında bu dərəcə əhəmiyyətli bir paralellik mövcuddur. Bu gün materializm təkamül nəzəriyyəsi ilə həyat taparkən, keçmişdəki materialist anlayış Böyük yaranma zəncirini özünə guya əsas dayaq götürmüşdür.




Böyük yaranma zənciri İntibahdan 18-ci əsrə qədər olan dövrdə olduqca məşhur idi və dövrün materialist elm adamları üzərində çox dərin izlər buraxmışdı. Xüsusən də Darvinizm dininin banisi Çarlz Darvinə böyük təsir göstərən Benoit de Maillet, Pier de Maupertuis, Comte de Buffon və Jean Baptiste Lamark kimi fransız alimləri yunanlardan olan Böyük yaranma zənciri anlayışını qəbul etdilər. Bu insanlar öz elmi araşdırmalarını da bu təkamülçü anlayış üzərinə qururdular. Bu elm adamlarının ən əhəmiyyətli xüsusiyyətləri, Allahın fərqli canlı növlərini ayrı-ayrı yaratmadığını, təbiət şərtlərinə görə öz-özlərinə dəyişmə keçirib təkamülləşərək ortaya çıxdıqlarını müdafiə etmələri, yəni Darvinə bənzər

təkamül modeli meydana gətirmələri idi (Allahı tənzih edirik). Bu səbəblə də müasir təkamülçülüyün Darvinin İngiltərəsindən çox Fransada doğulduğunu söyləyə bilərik.

Həmin fransız təkamülçülərdən Comte de Buffon 18-ci əsrin ən tanınan elm adamlarından biri idi. 50 ildən çox Parisdəki krallığa aid Botanika bağlarının direktoru idi. Darvin nəzəriyyəsinin bir çox tərəfini Buffonun işinə əsaslandırdı. Buffonun 44 cildlik "Naturelle" tarixi kitabında Darvinin istifadə etdiyi bir çox təlimə rast gəlmək mümkün oldu.



Böyük yaranma zənciri isə gərək Buffonun, gərəksə Lamarkın təkamülçü sistemləri üçün başlanğıc nöqtəsi təşkil etmişdi. Amerikalı tarixçi D. R. Olroyd, bu əlaqəni belə təsvir edir:

“Histoire Naturelle”nin birinci cildində Buffon özünü “Böyük yaranma zənciri” doktrinasının şərhçisi olaraq açıqlamaqdadır... Lamark isə qədim Böyük yaranma zənciri doktrinasının yeni bir versiyasını müdafiə edirdi... Lakin bu zəncir bərk, sabit bir quruluş kimi qəbul edilmirdi. Mühitin ehtiyaclarını qarşılamaq üçün mübarizələri ilə və “qazanılmış xüsusiyyətlərin sonrakı nəsilə köçürülməsi” prinsipinin köməyi ilə orqanizmlər zəncirinin yuxarılarına doğru yavaşca hərəkət edə bilirdilər. Başqa bir ifadə ilə mikrobdan insana doğru... Ayrıca zəncirin ən altında, spontan generasiya (ani yaranma) yolu ilə qeyri-üzvi (cansız) maddədən ortaya çıxan yeni varlıqlar dayanmadan yaranırdı. Zəncirin yuxarısına doğru davamlı olaraq kompleksləşən bir proses işləyirdi.25



Göründüyü kimi bu gün "təkamül nəzəriyyəsi" dediyimiz anlayış, həqiqətdə qədim yunan əfsanəsi olan Böyük yaranma zəncirinin zəmanəmizə daşınması ilə doğulmuşdu. Darvindən əvvəl bir çox təkamülçü var idi və onların əksər təkamülçü fikirləri və qondarma dəlilləri Böyük yaranma zəncirində idi. Buffon və Lamarkla birlikdə Böyük yaranma zənciri yeni bir örtüklə elm dünyasına təqdim edildi, oradan da Darvinə təsir etdi.

Həqiqətən də Darvin bu anlayışdan olduqca təsirlənmiş, hətta nəzəriyyəsini bu ana məntiq üzərinə qurmuşdu. Loren Eiseley "Darwin's Century" adlı kitabında Darvinin, "Növlərin mənşəyi" adlı kitabının bir çox hissəsində 18-ci əsrin bu yaranma nərdivanından istifadə etdiyini, xüsusilə də orqanik maddələrin zəruri olaraq mükəmməlliyə doğru irəlilədikləri fikrinin buradan doğulduğunu vurğulayırdı.26

Buna görə də, Darvin yeni və elmi nəzəriyyə ortaya atmamışdı. Darvinin etdiyi, kökləri qədim Şumerdəki bütpərəst əfsanələrə söykənən və əsl qədim Yunanın bütpərəst inancları içində yaranan bir batil inancı, müasir elmi terminləri istifadə edərək və təhrif edilmiş bir neçə müşahidə ilə dəstəkləyərək yenidən ifadə etməkdən başqa bir şey deyildi. Bu batil inanc, əvvəl 17 və 18-ci əsrdə yaşamış bir çox elm adamı tərəfindən yeni əlavələrlə zənginləşdirildi, sonra da Darvinin "Növlərin mənşəyi" adlı kitabında "elmi" görünüş qazanaraq elm tarixinin ən böyük yanılması olaraq ortaya çıxdı.

Dövrümüzdəki təkamülçülər hələ də özlərini "Ana təbiət" dedikləri xəyali bir "təbiət tanrısı"nın yaratdığına kor-koranə inanmaqdadırlar (Allahı tənzih edirik). Yəni Qədim Şumerdə və ya Qədim Yunanda yaşayan və öz ağıllarında yaratdıqları xəyali ilahlara sitayiş edən bütpərəstlərlə eyni anlayışsızlıq, ağılsızlıq və cəhalət içindədirlər. Necə ki, kitabın əvvəlindən bəri ifadə etdiyimiz bütün bu batil inancların nə qədər ağıldan kənar

olduğunu anlamaq üçün insanın ağılını istifadə edərək, ətrafına göz gəzdirməsi belə kifayətdir. Göz gəzdirdiyi zaman hər detalda bir gözəlliklə, üstün bir sənətlə və yaradılışla qarşılaşacaq. Və bu üstün yaradılışın kor təsadüflərlə, xəyali və uydurma yaranma zəncirləri ilə, heç bir şeyə güc çatdırmayan bütlərlə, ibtidai şorba ilə ya da şimşəklərlə yarana bilməyəcəyini anlamaq üçün də yenə ağıl və sağlam düşüncə kifayətdir. Buna baxmayaraq Allaha iman etməyən insanların sahib olduğu inkarçı zehniyyət, Quranda bu şəkildə təsvir edilməkdədir:





> *Onlar dedilər: "Bizi sehrləmək üçün nə qədər möcüzə gətirsən də sənə iman gətirən deyilik".*
>
> **(Əraf surəsi, 132)**

> *Əgər Biz onlara mələkləri göndərsəydik, ölülər də onlarla danışsaydı və hər şeyi onların qarşısına toplasaydıq, Allah diləmədikcə onlar yenə iman gətirməzdilər. Lakin onların əksəriyyəti (bunu) bilməz.*
>
> **(Ənam surəsi, 111)**

> *Əgər onlara göydən bir qapı açsaydıq və oradan yuxarı çıxsaydılar, hökmən: "Sadəcə olaraq gözlərimiz bağlanmış, daha doğrusu, biz sehrlənmişik", - deyərdilər.*
>
> **(Hicr surəsi, 14-15)**

Allahın varlığını inkar edən insanlar, ayələrdə bildirildiyi kimi açıq-aşkar cahillik içindədirlər. Bu məntiqdəki insanlar hər cür batil inancı, hər cür axmaq nəzəriyyəni qəbul edərlər, amma haqq olan həqiqətləri qəbul etməyə müqavimət göstərirlər. Elmi və məntiqi həqiqətlərə deyil, nəfslərinin özlərini sürüdüyü xəyali ssenarilərə inanmağı seçirlər. Necə ki, ilk dövrlərdən dövrümüzə qədər varlığını davam etdirən təkamül inancı da bu inkarçı zehniyyətin bir nəticəsidir. Ancaq bunu da xatırlatmalıyıq ki, bu zehniyyət hər zaman var olacaq; bu, Allahın bir qanunudur. Allah Quranda bu insanların varlığını belə xəbər vermişdir:

> *And olsun ki, cinlərdən və insanlardan bir çoxunu cəhənnəm üçün yaratdıq. Onların (haqqı) qavramayan qəlbləri, (haqqı) görməyən gözləri, (haqqı) eşitməyən qulaqları var. Onlar heyvanlar kimidirlər, hətta daha çox zəlalətdədirlər. Əsil qafillər onlardır.*
>
> **(Əraf surəsi, 179)**

ÜÇÜNCÜ HİSSƏ

# Darvinizm dinini yaxından tanıyaq

**"...Tez-tez üzərimə soyuq bir ürpərtdi gəlir və öz-özümə bütün həyatımı bir fantaziyaya həsr edib etmədiyimi soruşuram..."**

**Çarlz Darvin.**

(Francis Darvin, "The Life and Letters of Charles Darwin", cild II, New York: D. Appleton and Company, 1888, səh. 25)

Bir insanın Darvinizm dinini tanıması üçün əvvəlcə o günə qədər əldə etdiyi bəzi ön mühakimələri və fərziyyələri tərk etməsi lazımdır. Çünki böyük ehtimalla bu günə qədər öyrəndikləri, bu dinin həqiqətini və hədəflərini ortaya qoymamaqda, yalnız insanları təsir altına almağı hədəfləyən təlqinlərin izlərini daşımaqdadır. Bu günə qədər insanlara aşılanan bu təlqinə görə darvinizm, dünyanın "ən hörmətli" elm adamlarından biri olan Çarlz Darvinin ortaya qoyduğu və elmi olaraq sübut edilməmiş bir həqiqətdir. Halbuki bu təlqin tamamilə boş sözlərdən ibarətdir. Çünki, təkamül yanılması hissəsində də qısaca görəcəyiniz kimi darvinizmin bütün təməl iddialarını elm bir-bir etibarsız etmişdir (Təkamül nəzəriyyəsinin elm qarşısındakı tənəzzülünün detallarını görmək üçün "Təkamül yalanı" və "Həyatın həqiqi mənşəyi" adlı kitablarımıza baxa bilərsiniz). Təkamül nəzəriyyəsi, heç bir elmi təməli qalmadığı üçün də, yalnız təbliğat üsullarına söykənməkdədir. Bu təbliğat ilə, əslində qədim bütpərəst mədəniyyətlərdən gələn batil bir inanış olan təkamül düşüncəsi, insanlara elmi həqiqət kimi təlqin edilməkdədir.

Buna görə də, darvinizmi hər yönü ilə tanımaq üçün əvvəlcə bu təbliğatın təsirindən xilas olub həqiqətləri olduğu kimi görə bilmək lazımdır.

## Darvinizm dininin qurucusu: Çarlz Darvin

Dövrümüzdə təkamül nəzəriyyəsi deyiləndə insanların ağılına ilk olaraq Çarlz Darvin gəlməkdədir. Çünki hər nə qədər canlıların təkamülləşdiyi inancı bir çox qədim bütpərəst dinin təməlində olsa belə, təkamül nəzəriyyəsini bugünkü halına gətirən adam Darvindir. İnsanların darvinizm dinini tanıyarkən, silinəcək ön mühakimələrdən ən əhəmiyyətlisi də heç şübhəsiz Çarlz Darvin haqqında 150 ildir yaradılan əsassız təbliğatdır. Çünki Darvin insanlara illərdir üstün zəkalı, son dərəcə müvəffəqiyyətli və əfsanəvi bir elm adamı, obyektiv bir tədqiqatçı olaraq tanıdılmaqdadır. Hətta təkamülçü kütlələr tərəfindən "ən böyük elm adamı", "əsrin dahisi" kimi adlarla xatırlanması da, bu təbliğatın bir törəməsidir. Halbuki Darvinin həyatı və fikirləri nəzərə alındığında, həqiqətin heç də bu şəkildə olmadığı açıq şəkildə görüləcək.

Əvvəlki hissələrdə də vurğuladığımız kimi darvinizm dininin mənşəyi Darvindən daha qədimə söykənməkdədir. Darvin isə, kökü qədim sivilizasiyalara söykənən, 17 və 18-ci əsrdə fərqli elm adamları tərəfindən düzəliş edilən təkamül anlayışını yeni bir nəzəriyyə imiş kimi elm dünyasına təqdim etmişdi. Bu dinin ümumi təlimlərinin "təbliğ"ini də ilk olaraq özü etmiş; yaxın ətrafına, əhəmiyyətli elm adamlarına mülahizələrində, yazdığı kitablarda və fərdi məktublarında ətraflı şəkildə izah etmişdir. Onun tamamlaya bilmədiyi, əskik buraxdığı yerləri də tərəfdarları və ondan sonrakı təqibçiləri şəkilləndirib, izah etməyə davam etmişlər.

Darvin hər kəsin düşündüyü kimi nə qiymətli bir tədqiqatçı, nə əhəmiyyətli bir elm adamı, nə də təbiətin sirlərini açan "növlərin əfəndisi"dir. Bütpərəst təkamül dininin qurucusu olan Darvin, protestant təhsil almış, tibb təhsilini isə tamamlaya bilməmiş, səbəbi müəyyən

olmayan bir çox xəstəliklə boğuşan, danışmaqdan və müzakirə etməkdən çəkinən, başı ziddiyyətlərlə dolu, düz məntiqlər qurmaqda çətinlik çəkən, insanlardan qaçan, qarışıq ruh halına sahib, həvəskar bir tədqiqatçıdır. Yaradılışı inkar etməsinə baxmayaraq vicdanının səsini uzun müddət boğa bilməmiş, ancaq kiçik qızının ölümündən sonra emosional reaksiya verərək, Allaha və dinə qarşı üsyankar ruh halına girmiş, ortaya atdığı və sonradan "ateizmin təməli" sayılacaq nəzəriyyəsini sağlam olmayan bu ruh halı içində inkişaf etdirmişdir.

Darvinin müqəddəs kitab olaraq qəbul edilən "Növlərin mənşəyi" kitabı, çox sayda açıq və ziddiyyətli məlumatlara sahib olaraq, ehtimal və proqnozlara söykənən məntiq qurmaqdan daha irəli gedə bilməz. Hətta Darvin kitabını elmi araşdırma deyil, "uzun mübahisə iddiası" olaraq xarakterizə etdi (Bu uzun arqument, sonrakı on illərdə ortaya çıxan elmi kəşflərlə də çürüdülmüşdür).



Bununla yanaşı Darvin gərək kitablarında, gərəksə dostları ilə yazışmalarında nəzəriyyəsinin zəifliklərini, əsassızlıqlarını, ziddiyyətlərini və çıxılmaz vəziyyətini etiraf etmiş, nəzəriyyəsi haqqında çox ciddi şübhələri olduğunu, hətta bunları düşünməkdən "intihar edəcək səviyyəyə gəldiyi"ni bir dostuna yazdığı məktubunda etiraf etmişdir:

"Əgər mənə kitabımı soruşursan, sənə söyləyə biləcəyim tək şey intihar etməyə hazır olmamdır. Kitabın çox məqbul bir şəkildə qələmə alındığını düşünürdüm, lakin indi təkrar yazılması lazım olduğunu anladım."27

Hətta bir başqa məktubunda düşdüyü vəziyyəti "Fikirlərimin, saysız çətinliklərlə dolu olduğunu görə bilməyəcək qədər kor olduğumu sanma..."28 şəklində açıqlamaqdadır. Xüsusilə də dostu Çarlz Lyelle yazdığı məktublarında nəzəriyyəsindən duyduğu şübhələrini çox açıq şəkildə dilə gətirməkdədir:

"Müxtəlif mövzularla maraqlanan bir çox insanın illərdir bir illüziya içində olduğunu düşünərək olduqca sevinirəm. Tez-tez üzərimə soyuq bir ürpərtdi gəlir və öz-özümə bütün həyatımı bir fantaziyaya həsr edib etmədiyimi soruşuram..."29



Həmçinin Darvin, ortaya atdığı nəzəriyyənin səhv və əsassızlığını da fərq etmiş və belə yazmışdır:

“Oxucu əsərimin (“Növlərin mənşəyi”) bu hissəsinə çatmadan əvvəl bir çox çətinliklə qarşılaşmış olacaq. Bunların bəziləri bu günə qədər üzərində müəyyən bir ölçüdə dayanmadan düşünə bilmədiyim qədər çətindir.”30

Yaxın dostu Asa Graya yazdığı bir məktubda isə “Olduqca yaxşı bilirəm ki, fərziyyələrim elmin hüdudlarından çox kənara çıxdı” deyərək nəzəriyyəsini elmdən kənar bir fərziyyə olaraq qiymətləndirmişdir.



Çarlz Darvinin düşdüyü ziddiyyətli ruh halı və sağlam olmayan məntiq quruluşu sonrakı bəzi elm adamlarının da diqqətini çəkmişdir. Çünki bütün dünyaya mütləq bir həqiqət olaraq təqdim edilən bir nəzəriyyənin qurucusunun ziddiyyətlər və dərin şübhələrlə dolu olması, nəzəriyyənin üzərinə qurulduğu təməllər haqqında da çox ciddi şübhələr doğurmaqdadır. Amerikalı fizik Lipson, Darvinin bu qorxuları haqqında belə deyir:

““Növlərin mənşəyi”ni ilk dəfə oxuduğum zaman Darvinin özünə tamamilə əmin olmadığını, ümumiyyətlə təqdim edilən şəklin əksinə olduğunu başa düşdüm. “Nəzəriyyənin çətinlikləri” başlıqlı hissə, məsələn, çox diqqətə çarpan bir etibarsızlıq əks etdirməkdədir. Bir fizik olaraq gözün necə meydana gələ biləcəyi ilə bağlı açıqlamaları məni heyrətləndirdi.”31

Yaxşı Darvin öz deyimi ilə “bu fantaziya”ya nə vaxt könül vermişdi? Darvin uşaqlıq dövründə dini təhsili almışdı. Buna görə də, qədim sivilizasiyaların inanışları, təlimləri və dinlər tarixi mövzusunda məlumat sahibi idi. Amma digər tərəfdən yaşadığı əsrdəki pozitivist və materialist düşüncələrdən də çox təsirlənmişdi. Xüsusilə də babası Erasmus Darvinin din əleyhinə düşüncələri Darvin üzərində çox böyük təsir yaratmışdı.

## Erasmus Darvinin “Təbiət məbədi”

Gənc Çarlz Darvini dinsiz və hətta din-əleyhdarı edən ən əhəmiyyətli faktor, babası Erasmus Darvin idi. Gənc Çarlz Darvin, babasının fikirlərini balcalığından bəri dinləyər və bunlardan şiddətlə təsirlənərdi.32



Erasmus Darvin, əslində "təkamül" fikrini İngiltərədə ortaya atan ilk adam idi. Fizik, psixoloq və şair və olduqca təsirli bir insan idi. Ancaq olduqca qaranlıq şəxsi həyatı və ən az iki qeyri-qanuni uşağı vardı.33

Erasmus Darvinin ən əhəmiyyətli xüsusiyyəti isə, İngiltərənin ən qabaqcıl bir neçə "naturalist"indən biri olması idi. Naturalizm, kainatın varlığının təbiətdə olduğuna inanan, Allahın yaradışını qəbul etməyən və təbiəti yaradıcı sayan batil bir düşüncə axını idi. Əslində fikri mənşələrini qədim Şumer və Yunan əfsanələrində tapan naturalist fəlsəfəni ən çox müdafiə edənlərin başında isə, masonluq təşkilatı gəlirdi.

Bu həqiqət, Katolik aləminin dini lideri Papa XIII Leonun masonluğu hədəf alan 1884-cü il tarixli məşhur "Humanum Genus" adlı fərmanında xüsusilə vurğulanırdı. "Zamanımızda masonluq adlı, çox məşhur və qüvvətli bir təşkilata sahib bir dərnəyin dəstəyi və köməyi ilə, qaranlıq qüvvələrə sitayiş edənlər fövqəladə bir səy içində birləşmişdilər. Bunlar artıq niyyətlərini gizləmə ehtiyacı hiss etmədən Allahın Yüksək Varlığı ilə mübarizə etməkdədirlər" deyən Papa, təşkilatın naturalizmlə olan əlaqəsini də belə açıqlayırdı: "Masonların istəkləri və bütün səyləri eyni məqsədə yönəlməkdədir: ...Hər cür ictimai və dini intizamı tamamilə yıxmaq və yerinə prinsiplərini naturalizmdən alaraq və öz fikirlərinə görə şəkillənmiş yeni qaydaları oturtmaq".34

Məhz qədim bütpərəst dinlərdən qaynaqlanan və Allah inancını ortadan qaldırmağı hədəfləyən naturalizm fəlsəfəsinin və bunu mənimsəyən mason təşkilatının 18-ci əsrdə İngiltərədəki ən böyük nümayəndəsi, Çarlz Darvinin babası olan Erasmus Darvin idi.

Erasmus Darvin, Şotlandiya Edinburqdakı məşhur Canongate Kilwining mason lojasının ustadlarından biriydi.35 Üstəlik, Fransadakı Jakoben masonlarla və din düşmənliyini bir nömrəli vəzifə halına gətirən masonik Illüminati təşkilatı ilə da əlaqəsi vardı.36 Erasmus, oğlu Robert Darvini də

(Çarlz Darvinin atası) özü kimi yetişdirmiş və mason lojalarına üzv etmişdi.37 Buna görə də, Çarlz Darvin həm baba, həm də ata tərəfindən masonik miras götürəcəkdi.



Çarlz Darvinin nəzəriyyəsinin ana xətləri, əslində babası Erasmus Darvin tərəfindən təyin olunmuşdu. Erasmus Darvinin naturalist işləri, Çarlz Darvinə yol göstərəcək xüsusiyyətdə idi. Erasmus Darvin, qurduğu səkkiz

hektar botanika bağında apardığı tədqiqatlarla Darvinizmə təməl təşkil edəcək məntiqləri inkişaf etdirmiş və bunları “The Temple of Nature” (Təbiət məbədi) və “Zoonomia” adlı kitablarında cəmləmişdi. Erasumus Darvinin kitabına ad olaraq istifadə etdiyi “Təbiət məbədi” anlayışı, həqiqətdə sahib olduğu naturalist inancın bir ifadəsi idi: Bu təbiətin yaradıcı bir gücə sahib olduğuna inanan qədim bütpərəst inancların bir təkrarı idi (Allahı tənzih edirik).

Digər tərəfdən də, 1784-cü ildə bu fikirlərin yayılmasına liderlik edəcək bir dərnək qurmuşdu: “Philosophical Society”. Necə ki, həqiqətən də “Philosophical Society” on illər sonra Çarlz Darvin tərəfindən ortaya atılan qaydanın ən böyük və fəal dəstəkçilərindən biri olacaqdı.38

Qısacası, Çarlz Darvinin qədim bütpərəst mədəniyyətlərdən qalan bir əfsanə olan “təkamül” fikrinə inanmasının təməlində, bir mason və naturalist olan babası Erasmus Darvinin böyük rolu olmuşdur. Çarlz Darvin, “Təbiət məbədi” kitabının yazarı olan babası vasitəsilə, təbiətə sitayiş etməyə söykənən bütpərəst inancları mənimsəmiş və nəzəriyyəsini bu zehniyyət üzərində qurmuşdu.

Darvinin nəzəriyyəsinin çıxış yeri isə Qalapaqos adaları oldu.

## Qalapaqos adalarında həyat tapan qaranlıq din

Okeanın ortasında yamyaşıl adalar qrupuna ziyarət etdiyinizi düşünün. Əsas qurudan minlərlə kilometr uzaq olan bu kiçik quru parçasında dünyanın heç bir yerində görə bilməyəcəyiniz gözəllikdə, müxtəliflikdə və zənginlikdə bitkilər və heyvanlar var. Quşların hər biri ayrı rənglərə, görünüşlərə hətta fərqli səslərə sahibdirlər. Daha əvvəl dünyanın heç bir yerində rast gəlmədiyiniz növbənöv canlılar yaşayır. Belə bir yerdə olsaydınız və bu möhtəşəm mənzərəni seyr etsəydiniz, canlılara baxdığınızda nə düşünərdiniz?

Böyük ehtimalla rənglər, canlılıq, müxtəliflik qarşısında böyük bir heyranlıq duyar və bu qədər çox canlının necə meydana gəldiyini düşünərdiniz. Daha sonra gəldiyiniz nəticə, böyük bir okeanın ortasında kiçik bir quru parçası üzərində çox mükəmməl yaradılış dəlilləri sərgiləndiyi olardı. Necə ki, normal bir anlayışa və məlumata sahib olan hər insan, yuxarıda təsvir edilən məkana getdiyində və bu canlılarla qarşılaşdığında, hər birinin yaradılışında bir fövqəladəlik olduğunu fərq edə bilər.

Halbuki təbiətdə gördüyü bu möcüzəvi müxtəliflik Darvini, bir çox insanın əksinə, bütün varlıqların təsadüf əsəri meydana gəldiyi nəticəsinə aparmışdır. O, bütün bunları yaradan Allahın sonsuz qüdrətini təqdir edə bilməmişdir. Kainatdakı sənətdən təsirlənməsi və bir tədqiqatçı olaraq bu həqiqəti dərhal anlaya bilməsi lazım ikən, Darvində bu məntiq tam tərsinə işləmişdir. Şübhəsiz, bu, onun məntiq pozuqluğunu gözlər önünə sərməkdədir.



Məhz belə bir məntiq pozuqluğuna sahib olan Darvin, beş il davam edən səfəri əsnasında, bir çox qərbli insanın daha əvvəl qarşılaşmadığı canlılarla qarşılaşdı. Xüsusilə də Qalapaqos adalarında yeni növlərlə üz-üzə gəldi.

Qalapaqos adaları xüsusilə quş və sürünən növlərinin çoxluq təşkil etdiyi, bir çox canlı növünün yaşadığı bir bölgədir və dolayısilə bura gedən bir elm adamının araşdıra biləcəyi saysız canlı növü var. Darvin, səfəri əsnasında bu canlıların minlərləsini toplayıb spirtdə saxlamasına baxmayaraq, xüsusilə fərqli alacəhrə quşunun növlərinə diqqət yetirmiş

və bu canlıların dimdiklərindəki struktur fərqliliklərini araşdırdıqdan sonra, nəzəriyyəsini şəkilləndirməyə başlamışdır.

Əslində Darvinin etdiyi şey, əlindəki bir tapıntını şişirdərək, tamamilə xəyali fərziyyələrə vəsait hazırlamaqdır. Alacəhrələr arasında, genetik hovuzlarının icazə verdiyi ölçüdə növlərə ayrılma (variasiya) olduğu doğrudur. Amma bu vəziyyət, alacəhrələrin bir başqa quş cinsindən təkamülləşdikləri və ya bir başqa cinsə çevrilə biləcəkləri mənasını verməz. Necə ki, dövrümüzdəki təkamülçülər də, Darvinin alacəhrə dimdikləri kimi variasiya nümunələrindən yola çıxaraq ortaya atdığı iddiaların, elmi olmayan şişirdilmiş bir fərziyyə olduğunu qəbul etməkdədirlər.39

Həqiqətən də alacəhrələrin dimdiklərinin müxtəlifliyini araşdıraraq bütün canlı növlərinin mənşəyinə; məsələn nəhəng ölçülü balinaların, fərqli görünüşləri ilə fillərin, möhtəşəm uçuş qabiliyyəti ilə milçəklərin, qanadlarındakı fövqəladə simmetriya ilə diqqət çəkən kəpənəklərin, dənizaltında yaşayan bir-birindən çox fərqli balıqların, qabıqlı dəniz canlılarının, quşların, sürünənlərin və ən əhəmiyyətlisi də ağıl və şüur sahibi insanın necə var olduğuna istiqamətli nəticə çıxarmaq, ağıl və elm yolu ilə düşünən insanın mənimsəməyəcəyi bir davranışdır.

Qaldı ki, bir elm adamının canlıları araşdırdığında görməli olduğu tək mövzu variasiya deyil. Əksinə, həyatda baş verən fövqəladə yaradılış alim qarşısında daha fundamental və vacib bir mövzu olaraq qarşılanır. Məsələn əsl elm adamı, alacəhrə quşları üzərində tədqiqat apardığında ilk olaraq bu canlıların necə olub da qüsursuz bir uçma mexanizminə sahib olduqlarını düşünər. Quş qanadlarını qüsursuz şəkildə var edənin, onları mükəmməl bir texnologiya ilə yaradanın kim olduğunu soruşar. Tək bir quş tükündəki aerodinamika xüsusiyyəti, uçmağa əlverişli olaraq yüngül

və elastik quruluşu, tükləri bir-birinə bağlayan milyardlarla kiçik tükcüklərin necə var olduğunu araşdırar.

Məhz açıq şüurla, fikri vəsvəsələrdən uzaq bir şəkildə düşünən elm adamı bu əhəmiyyətli sualların cavabını axtarar. Və bütün bu tədqiqatlarının, düşüncələrinin nəticəsində çox açıq və qəti olan bir həqiqəti görər: Bu qüsursuz yaradılış dəlilləri, bənzərsiz gözəlliklər və saymaqla bitməcək qədər çox olan müxtəliflik, Allahın yaratmasının əsərləridir.






Darvinin və onun yolunu izləyən təkamülçülərin bu həqiqəti göz ardı etmələrinin səbəbi isə, inandıqları materialist fəlsəfə və bu fəlsəfəyə olan psixoloji bağlılıqlarıdır. Bu vəziyyət, Darvində çox diqqətə çarpan şəkildə müşahidə edilməkdədir. Gözün quruluşu və tovuz quşu tükləri haqqında etdiyi şərh, bu mövzuda açıqlayıcı bir nümunədir. Ağılını istifadə etməyən, açıq vicdanla düşünən insan, tovuz quşunun tüklərindəki məftunedici estetikaya heyran olar və bu gözəlliyi yaradanı düşünər. Ancaq baxın, Darvin tovuz quşunun tükləri ilə əlaqədar nələr düşünməkdədir:





“Göz haqqında düşünmək məni tez-tez nəzəriyyəmdən uzaqlaşdırdı. Ancaq zamanla bu problemə alışmışam. İndiki halda təbiətdəki aşkar strukturların bəziləri məni çox narahat edir. Məsələn, bir tovuz quşunun lələklərini görmək məni demək olar ki, xəstə edir.”40



Şübhəsiz, tək başına bu nümunə belə Darvinin elmə və təbiətdə qarşılaşdığı varlıqlara qarşı olan ön mühakiməli dünyagörüşünün bir göstəricisidir. Göründüyü kimi Darvin, Qalapaqos adalarında qarşılaşdığı canlıların böyük hissəsinə görə də "xəstə olmuş" və onları "spirtdə saxlamaqla" kifayətlənmiş, amma onlarda gördüyü fövqəladə xüsusiyyətlər üzərində düşünmək istəməmişdir.

Halbuki bir insanın bütün kainatda var olan yaradılış dəlillərini görə bilməsi üçün Qalapaqos adalarına getməsinə də ehtiyac yoxdur. İnsan öz bədənindən başını yüngülcə qaldırıb baxdığı səmaya qədər hər yerdə Allahın varlığının, gücünün, ağılının və elminin saysız dəlilini görə bilər.

Məsələn, Darvini nəzəriyyəsindən soyudan göz, bu saysız dəlildən yalnız biridir. Göz, təsadüflər nəticəsində meydana gələ bilməyəcək qədər kompleks və qüsursuz quruluşa malikdir. 40 ayrı orqanoiddən ibarət olan gözün əhəmiyyətli tərəfi, "sadələşdirilə bilməz komplekslik" olaraq

adlandırılan bir xüsusiyyətə sahib olmasıdır. Bu o deməkdir ki; bu 40 orqanoidin hər biri gözün işləməsi üçün birlikdə olmalıdır. Bunların biri olmasa göz heç bir işə yaramaz. Bu 40 ayrı hissənin hər biri də öz daxillərində kompleks strukturlara malikdir. Məsələn gözün arxa hissəsindəki torlu qişa 11 ayrı təbəqədən meydana gəlir. Bu təbəqələrdən biri qan damarı şəbəkəsidir. Bədənin ən sıx damar şəbəkəsini meydana gətirən bu təbəqə, işığı şərh edən torlu qişa hüceyrələrinin oksigen tələbatını qarşılayır. Digər təbəqələrin hər birinin isə ayrı vəzifələri vardır. Heç bir təkamülçü bu cür kompleks bir orqanın necə meydana gəldiyi sualına məqbul cavab verə bilmir. Çünki göz, Allahın qüsursuz yaradışının dəlillərindən biridir. Quranda bildirildiyi kimi;

> *O, yaradan, yoxdan var edən, (yaratdıqlarına) surət verən Allahdır. Ən gözəl adlar (əsmayi-hüsna) Ona məxsusdur. Göylərdə və yerdə nə varsa, hamısı Onu təsbeh edir. O, qüdrətlidir, hikmət sahibidir.*
>
> **(Həşr surəsi, 24)**

Kor-koranə Darvinə inanan və onu növlərin ustası elan edənlər və həyatlarını Darvinizmi müdafiə etməyə həsr edənlər bu günə qədər təsvir etdiyimiz cəhətləri nəzərə almalıdırlar. Bu insanlar görməlidirlər ki: Darvinin nəzəriyyəsi, babasından "Təbiət məbədi" nağıllarını, səhv nəticələr nəticəsində əldə edilən həvəskar biologiya biliklərini, bu mülahizələrə söykənən fərziyyələri, həqiqətləri rədd etməyə söykənən qatı mühakiməyə və 19-cu əsrin ateizmini elm zənn edən səthi mədəniyyətinə söykəndiyini öyrəndi. Qədim bütpərəst mədəniyyətlərdən toplanan bu ssenari, Aristotelin ilk dövrlərdə qarşıya qoyduğu batil bir inanış olan "Scala Naturae"nin yerini almışdır.





Bu batil dinin hələ israrla müdafiə olunmasının tək həqiqi səbəbi isə, əsl dinin təməlinə, yəni Allah inancına qarşı bir təbliğat vəsaiti olaraq görülməsidir. Təkamül nəzəriyyəsinə gətirdiyi tənqidlərlə və nəşr etdiyi kitablarla akademik dairələrdə çox hörmət sahibi olan Çikaqo universiteti professoru Philip E. Johnson, təkamül nəzəriyyəsinin dövrümüzdə batil bir din olaraq aldığı yeri açıqlayaraq, "...Darvinizmin qəbul edilməsi Allahın varlığının inkar edilməsi mənasını verirdi və nəticə olaraq Allahın vəhyinə söykənən dinin yerinə təkamüllü naturalizmə söykənən yeni bir inanc yaradıldı..." deməkdədir.41 Johnson Darvinizmin bu funksiyasını bir başqa kitabında isə belə açıqlayır:



“Müasir elmin rəhbərləri özlərini bir Yaradanın olduğunu və dünyanın hadisələrində rol oynadığını qəbul edənlərə qarşı müharibənin qabaqcılları kimi görürlər.... Darvinizm isə, bu müharibədə yeri doldurulamaz bir ideoloji rol oynayır. Məhz bu səbəblə, bu gün elm dairələri, Darvinizmi test etməyi deyil, nə olursa olsun qorumağı özlərinə məqsəd hesab etmişlər. Elmi tədqiqatların qaydaları da, bu ideologiyanı təsdiqləyəcək şəkildə müəyyənləşdirilir.”42

Philip E. Johnsonun da ifadə etdiyi kimi o dövrdən etibarən bütün materialist fəlsəfələr təkamül nəzəriyyəsində özünə dayaq tapmış və dinə qarşı icra edilən bütün təbliğat fəaliyyətləri darvinizmdən güc tapmışdır. Buna görə də, Darvinizmin yaşadılması, dinə düşmən olan güclərin ən vacib hədəflərinin başında gəlməkdədir. Necə ki, hansı ölkəyə baxılsa, Darvinizmin ən qabaqcıl müdafiəçilərinin eyni zamanda dinə və dindarlara düşmən olan insanlar olduğu açıq şəkildə görülə bilər.

## Batil darvinizm dininin saxta kitabı: “Növlərin mənşəyi”

“Növlərin mənşəyi” kitabı darvinçilər tərəfindən sanki müqəddəs kitab kimi qorunur və hörmət edilir. Halbuki əvvəlki səhifələrdə də araşdırdığımız kimi “Növlərin mənşəyi” kitabı Darvinin müşahidələrini, şübhələrini, ziddiyyətlərini, qaranlıq ruh halını bir fantastika olaraq təqdim etdiyi çox qalın ziddiyyətlər yığınıdır. Kitab elmi iş deyil, bir məntiq icra etmə üzərinə quruludur. Hətta Çarlz Darvin belə kitabının elmiliyi mövzusunda çox ciddi şübhələr içindədir. Bir əvvəlki hissədə də ifadə etdiyimiz kimi ağlı son dərəcə qarışıq olan Darvin, dostu J. D. Hookerə yazdığı məktubunda; ““Növlərin mənşəyi”nin nəşr olunmasının ardından o qədər çox şey nəşr olundu ki, bu məlumatları qiymətləndirib bir bütün halına çevirmə gücünə və ağıl qabiliyyətinə sahib olduğumdan şübhə edirəm”43 deməkdə, amma onun bütün etiraflarına baxmayaraq darvinistlər bu kitaba hələ də çox böyük əhəmiyyət verməkdədirlər.

Bu kitabın məzmunu haqqında bir başqa açıqlayıcı məlumatı Çarlz Darvinin ən yaxın dostlarından olan A. Sedgwickin yazdığı bir məktub verməkdədir:



J.H. Hooker



A. Sedwig




“Bəzi hissələrinə heyranlıq duydum. Bəzi hissələrinə isə qarnım ağrıyana qədər güldüm. Oxuduğum digər hissələr mənə böyük bir acı verdi. Çünki bunların tamamilə səhv və zərər verici olduqlarını düşünürəm... Çıxardığın nəticələrin böyük bir hissəsi, bəzi təxminlərə söykənir... Təbii seleksiyanı, seçici bir orqan tərəfindən şüurlu olaraq edilmiş bir şey kimi yazmısan.”44

Kitab bir çox məntiqi səhvlərə, irrasional fərziyyələrə və həll edilməmiş təriflərə əsaslansa da, yenə də tənqid olunmur və həmişə əlində saxlanılır.

Bunun səbəbi ehtiva etdiyi məlumatlardan çox, bu kitaba yüklənən vəzifə və mənadır. “Növlərin mənşəyi” kitabı materialist və ateist fəlsəfələrin təməl dayağını meydana gətirdiyi üçün bu inanca sahib insanlar tərəfindən çox xüsusi qiymətləndirilməkdədir. Çünki “Növlərin mənşəyi” dünya üzərində, materialist həyat anlayışı üzərinə qurulan bütün ideologiyalar, azğın inanışlar, batil dinlər üçün çox böyük əhəmiyyət təşkil etmiş, sanki bir qurtarıcı olaraq görülmüşdür. İndiki vaxtda bir çox insan bu kitabı heç oxumamış olmasına baxmayaraq, bir çox təhsil müəssisəsi bu kitaba müasir düşüncənin təməl dayağı olaraq baxmaqdadır. Jack Barzun “Növlərin mənşəyi”nin daşıdığı əhəmiyyəti bu şəkildə təyin etməkdədir:

“Şübhəsiz, həm təbii seleksiyaya inananlar, həm də inanmayanlar, darvinizmin bir ortodoksu kimi müvəffəqiyyət əldə etdiyi və çox sayda elmi, fəlsəfi və ictimai hadisələri hərəkətə keçirici bir əsər olduğu mövzusunda həmfikirdirlər. Darvin bir kahin olmuşdu, “Növlərin mənşəyi” də təkamülün dünyanı hərəkət etdirdiyi sabit bir nöqtədə idi.”45

Elmi kəşflər “Növlərin mənşəyi”nin adi və müasir elmi dünya üçün etibarlı olmayan bir kitab olduğunu sübut etsə də, Darvin və kitabı ucaldılmağa davam edir. Ancaq kitab araşdırıldıqda, əslində həvəskar bir təbiətşünasın səhv təsəvvürü və fərziyyəsi olduğu görülür. Henry M. Morris “The Long War Against God” adlı kitabında “Növlərin mənşəyi”nin elmdən nə qədər uzaq olduğunu belə izah edər:






"Oxucu bütün kitabda ("Növlərin mənşəyi") təkamülə dair hər hansı elmi dəlili boş yerə axtarır... Heç bir yerində dəlil verilməmişdir. Təbii seleksiya ilə törədiyi bilinən heç bir yeni növ adı ifadə edilməmiş, heç bir ara-keçid forması göstərilməmiş, heç bir təkamül mexanizmi sənədləşdirilməyib. Əslində, bütün kitabda ortaya atılan sübutların olmamasıdır. Tamamilə fərziyyə, xüsusi bəhanələr, o dövrə aid fərziyyələr. "Növlərin mənşəyi"ndəki dəlil, ya da arqumentlərdən heç biri

digər təkamülçülər tərəfindən belə müasir tənqidi analizlər altında müdafiə olunmamışdır. Təəccüblüdür ki, belə bir kitab insan həyatının tarixinə bu qədər təsir göstərmiş və bundan sonra düşünmüşdür. Burada gözlə görünəndən daha çox şeylər olmalıdır!"46

Henry Morrisin də söylədiyi kimi "Növlərin mənşəyi"nin insanlıq tarixi üzərində etdiyi bu böyük təsirin altında daha fərqli səbəblər vardır. Çünki elmi işin (doğru olsun, ya da olmasın) bu dərəcə böyük bir ehtirasla və fanatizmlə müdafiə olunduğu bütün elm tarixi boyunca görülməmişdir. Daha əvvəl də ifadə etdiyimiz kimi, Nyutonun, Eynşteynin elm dünyasında cığır açan fikirlərinin arxasında bu tip fanatik tərəfdarlar yoxdur. Çünki burada qarşımıza çıxan bir elmi qayda deyil, insanlara bir çox təlqin üsulu istifadə edilərək qəbul etdirilməyə çalışılan bir batil dindir. Darvin bu batil dinin qurucusudur və əlində təkamülçülər tərəfindən sanki müqəddəs sayılan kitabı vardır.



Albert Einstein



Isaac Newton

## Darvinizm dini bütpərəst bir dindir

İnsanların böyük hissəsi Allahın vəhyinə söykənən haqq dinə inanarkən, bəziləri də özlərinin, ya da yaşadıqları cəmiyyətin ortaya çıxardıqları batil dinlərə inanar, totemlərə sitayiş edər, günəşə dua edər, UNO-lardan kömək gözləyərlər (Allahı tənzih edirik). Daha əvvəl də ifadə etdiyimiz kimi, qərb ədəbiyyatında bu insanlar “paqan” (bütpərəst) olaraq adlandırılarlar. İndiyə qədər araşdırdıqlarımızın fonunda təkamül nəzəriyyəsi bu bütpərəst dinlərdən biridir və bu dinin bir çox tanrıları var.

Darvinizmin bütlərindən ən əhəmiyyətlisi “təsadüf bütü”dür. Hansı darvinist əsəri oxusanız eyni bütdən, bu bütün gücündən, qabiliyyətlərindən, təcrübələrindən və uzaqgörənliyindən bəhs edildiyini görərsiniz. Çünki darvinistlər kainatın və kainatda var olan bütün canlı və cansız varlıqların təsadüflər nəticəsində ortaya çıxdığına inanarlar. “Təsadüf bütü”, darvinizmin əsasıdır, həyat damarıdır. Maraqlı olansa adlarının qarşısında “elm adamı” sifəti olan bəzi darvinistlərin də eyni bütdən bəhs etmələri və bu bütpərəst dinin təlimlərini dilə gətirmələridir. Məsələn özü də qatı təkamülçü olan fransız zooloq Pierre Paul Grassé “...Təsadüf (təkamülçülər arasında), ateizm görünüşü altında özünə gizlicə sitayiş edilən bir növ ilah halına gəlmişdir.”47 deyərək bu həqiqətə diqqət çəkmişdir.

Bu büt darvinizm kimi daha bir çox bütpərəst dində də qarşımıza çıxmaqdadır. Yunan dinlərində, Çin və Hind dinlərində canlıların ortaya çıxışı yenə eyni “təsadüf bütü”ylə açıqlanmaqdadır. Qədim Mesopotamiya dinlərində də eyni şəkildə müxtəlif bütlərə sitayiş edilməkdə, bir maddə yığını olan bu bütlərdən fayda əldə etməyi ümid edilməkdə və çox böyük güclərə sahib olduqlarına inanılırdı. Lakin qədim dinlərdəki bu bütün

Darvinizmin “təsadüf bütü”ndən bir fərqi vardı; çünki bu dinlərdəki inanışa görə canlılığı meydana gətirənlər kor təsadüflər idi. Məsələn canlıların meydana gəlməsi bir çay daşmasını ya da bir fəlakəti gözləmək vəziyyətində idi. Yeni orqanların ya da canlı növlərinin meydana gəlməsi də yenə eyni təbii fəlakətləri, istilənin ani dəyişmələrini ya da yüksək nisbətlərdə radiasiyanın ortaya çıxmasını gözləmək məcburiyyətində idi. Halbuki Darvinizmin “təsadüf bütü” bu bütlərdən çox fərqlidir; o şüurlu və uzaqgörənliyi olan bir bütdür!

Darvinizm bütünün hər etdiyi bir hesab üzrədir. İşini kor təsadüflərə və ya boş proseslərə buraxmır. Hər şeyi düşünə bilər, hər addımını əvvəldən hesablaya bilər. Bu “təsadüf bütü” o qədər qabaqgörəndir ki, ən kiçik orqanizmlərdən başlayaraq yer üzündə var olan bütün canlı növlərini meydana gətirə bilər, onların ehtiyac duyacaqları hər cür detalı milyonlarla il əvvəlcədən düşünüb hazırlaya bilər, hətta milyonlarla il sonra meydana gələ biləcək hər cür hadisəni bilər, onlara görə tədbirlər alar, heç bir detalı buraxmaz.

“Təsadüf bütü” bütün bunları edərkən bir çox üsul istifadə edər və bunlardan ən əhəmiyyətlilərindən biri də mutasiyadır.

Mutasiyanın mənası canlı hüceyrəsinin nüvəsində olan və genetik məlumatı daşıyan DNT molekulunda, radiasiya və ya kimyəvi təsirlər nəticəsində meydana gələn qopmalar və yer dəyişdirmələrdir. Mutasiyalar çox vaxt hüceyrənin təmir edə bilməyəcəyi ölçülərdə bəzi ziyan və dəyişikliklərə səbəb olarlar. Məsələn, Daun sindromu, cırtdan xəstəliyi, oraq hüceyrəli anemiya kimi psixi və ya fiziki pozğunluqlar, ya da xərçəng kimi xəstəliklərin hər biri, mutasiyanın dağıdıcı xüsusiyyətlərini nümayiş etdirir. Mutasiya canlıları inkişafa və mükəmməlliyə aparan bir sehr deyil və dəqiq təsiri zərərlidir. Yəni meydana gətirdiyi dəyişikliklər ölülər, şikəstlər və xəstələrdir. Bu həqiqət

bir çox elm adamı tərəfindən dilə gətirilməkdədir. Hətta elm adamları mutasiyanı “bir şəhəri dağıdan zəlzələyə”48 bənzədərlər.

Əslində mutasiyaların nəticələri həmişə mənfi olsa da Darvinizm dininin ən vacib bütü olan, “təsadüf bütü”nün mutasiyası necə olursa bəzən səliqəli və müsbət nəticələr verir! Və bu bütün ortaya çox ehtişamlı gözəlliklər, qüsursuz canlılar, görkəmli nizamlar çıxardığına inanılar. Məsələn “təsadüf bütü” tək bir insan bədənindəki yüz trilyon hüceyrəni də səhvsiz və əskiksiz olaraq meydana gətirə bilir. Eyni bir fabrik kimi işləyən, enerji, ferment və hormon istehsal edən, istehsal etdiyi bütün məhsullarla əlaqədar məlumatları nüvəsindəki məlumat bankında saxlayan, bölgələr arasında xammal və məhsul nəqli edən, çöldən gələn hər cür maddəni təhlil edən laboratoriya və emal etmə sistemlərinə və çölə çıxıb-girən hər cür maddəni nəzarət edən hüceyrə pərdəsi kimi bir nəzarətə sahib olan bu hüceyrələri meydana gətirərkən “təsadüf bütü”, əsla səhv etməz, planlarında axsaqlıq meydana gəlməz.

“Təsadüf bütü”nün bu bənzərsiz(!) gücünün nümunələrini saymaqla bitirə bilmərik. Məsələn eyni büt bütün canlıların həyatını ürək və qan dövranı sisteminə bağlayarkən, ürəyin işləməsi üçün qanı bədənin hər zərrəsinə daşıyacaq bir arteriya sistemi də var etmişdir. Təbii ki, bunu edərkən paylanacaq bu qanı toplayacaq vena sistemini qəti olaraq unutmamışdır. Bu zaman karbon 4 oksidlə çirklənən qanı təmizləmək üçün ağciyər, ya da qəlsəmələri də bu sistemə əlavə etmiş və bütün sistemi ürəyə bağlamışdır. Təbii ki, qanı digər tullantılardan təmizləmək üçün mütləq böyrəklərin lazım olduğunu bilmişdir və onu da dərhal var etmişdir...

Əgər davam etsək bu siyahı uzanıb gedər. Bir canlının həyatını davam etdirməsi üçün çox sayda orqanın, tam və əskiksiz şəkildə və eyni anda var olması lazımdır. Bunların birinin belə işləməməsi o canlını bir neçə dəqiqədə, ya da ən çox bir neçə gündə öldürər. Lakin təkamülçülərin

iddiasına görə "təsadüf bütü", son dərəcə şüurlu, diqqətli, səhvsiz və qüsursuz şəkildə bu saydığımız və burada saya bilmədiyimiz minlərlə detalı düşünmüş, hazırlamış və meydana gətirmişdir.

"Təsadüf bütü" bununla yanaşı bu kitabda maddələrə ayıraraq belə sıralaya bilməyəcəyimiz qədər uzun bir prosesdən sonra insanı var etmişdir. Lakin insanı var etməklə də kifayətlənməyib onun (və onun minlərlə nəsil sonrakı qohumlarının da) ehtiyac duya biləcəkləri hər cür detalı düşünmüşdür. Canlı olan hər şeyin minlərlə illik sistemini də planlamış, çox uzun vədəli və incə planlar etmişdir. Gələcək nəsillərin ehtiyaclarını düşünərək minlərlə il əvvəlindən buğdanı var etmişdir və yenə gələcək nəsillərin enerji ehtiyacını düşünərək nefti var etmişdir. Bir enerji qaynağı olaraq Günəşi var edərkən, insanları bu günəşin zərərli şüalarından qoruyacaq atmosfer təbəqələrini də var etməyi unutmamışdır. İnsanın bütün bədən sistemlərini nəfəs alıb vermə üzərinə qurarkən, eyni anda da nəfəs alması üçün lazım olan atmosferi var etmişdir. Dünya üzərində elə bir sistem var etmişdir ki, hər birinin varlığı digərinin varlığına söykənməkdədir. Oksigenin varlığını bitkilərə, bitkilərin varlığın suya, suyun varlığını atmosferdəki istiliyə, bütün bu sistemləri dünyanın fırlanmasına, bunu göy cisimlərinin bir-birlərini cazibə qüvvəsinə, günəşlə aya uzaqlığına və daha milyonlarla detala bağlamışdır. Hər canlı bir başqası ilə bəslənir, biri olmadığı zaman digəri də zərər görür. Amma təkamülçülərə görə inandıqları "təsadüf bütü" o qədər şüurlu bir bütdür ki, heç bir detalı unutmamış, heç bir kəsir buraxmamışdır.

"Təsadüf bütü" bütün bunlarla yanaşı, zaman keçdikcə milyonlarla canlı növü var etmiş və hər bir canlını möhtəşəm xüsusiyyətlərlə bəzəmişdir. Bu, təkamülçülərin inancına görə elə bir bütdür ki, hər istədiyini edə bilər. Göz düzəltmək istəsə bunu edər, qulaq düzəltmək istər dərhal edər. Hər istədiyini ən mükəmməl şəkildə hazırlayar və nəyi necə edəcəyini

çox yaxşı bilər. Məsələn bir göz var etmək istədiyi zaman bütün detalları əvvəldən hesablayar və səhvsiz nəticələr əldə edər. Necə ki, hələ ortada göz yox ikən, hətta görmək deyə bir anlayış yox ikən, əvvəl kəllə sümüyü içində iki boşluq meydana gətirmişdir, sonra bu boşluqların içinə içi işığı keçirən bir maye ilə dolu iki kürə yerləşdirmişdir. Daha sonra bu mayelərin ön tərəfinə işığın da asanlıqla qırılmasını təmin edən və işığı gözün arxa divarında fokuslayan iki lupa qoymuşdur. Daha sonra yenə gözün ətrafa baxa bilməsi üçün göz əzələləri meydana gətirmişdir. Bu qədərlə də bitməmiş, gözün arxa divarında, işığı qəbul edə biləcək retina təbəqəsi, gözü beyinə bağlayacaq sinirlər, gözün qurumamasını təmin edəcək gözyaşı vəzləri və gözü toz və bənzəri xarici maddələrdən qoruyacaq iki göz qapağı və kirpik meydana gətirmişdir. Məhz darvinizmin “təsadüf bütü”, normal şərtlərdə ortaya, şikəstlər, xəstəliklər çıxaran və bir canlı üzərində heç bir zaman müsbət nəticə verməyən mutasiya mexanizminin də köməyi ilə bu cür qüsursuz orqanlar meydana gətirmişdir!

Həmçinin təkamülçülərin inancına görə darvinizmin bir başqa əhəmiyyətli xüsusiyyəti isə estetik qayğısının olmasıdır. Canlı, ya da cansız bir varlıq meydana gətirərkən bunun rənginin, görünüşünün, dadının, qoxusunun, şəklinin son dərəcə estetik və uyğun olmasına çox diqqət yetirər. Bir meyvə, ya da tərəvəz var edərkən dadını, qoxusunu, şəklini, vitaminini, mineralını, karbohidratını, şəkərini, kalorisini hesablayıb ona görə var edə bilər. Çiyələyi var etməklə kifayətlənməyib, onun xoş qoxusunu və ürəkaçan görünüşünü də hesablayır. Təbii ki, eyni zamanda insanda da dad və qoxu hiss etmə duyğularını buna görə və bunlardan zövq alan şəkildə var edər. Təkamül nəzəriyyəsinə qarşı darvinizmi tənqid edən dünyaca məşhur Fransız zooloq Pierre-Paul Grassé, “Evolution of Living Organisms” (Orqanizmlərin təkamülü) adlı kitabında darvinizm və təsadüf anlayışını bu şəkildə sorğulamaqdadır:

"Təsadüfə söykənən mutasiyaların heyvanların və bitkilərin ehtiyaclarının qarşılanmasını təmin etdiyinə inanmaq həqiqətən çox çətindir. Amma darvinizm bundan çoxunu da istəyir: Tək bir bitki, tək bir heyvan, minlərlə tam olması lazım olduğu şəkildə faydalı təsadüflərə məruz qalmalıdır. Yəni möcüzələr sıravi bir qayda halına gəlməli, inanılmaz dərəcədə aşağı ehtimallara sahib hadisələr asanlıqla reallaşmalıdır. Xəyal qurmağı qadağan edən bir qanun yoxdur, amma elm bu işin içinə daxil edilməməlidir."49



Məhz Darvinizm dininin təməli, elmə və ağıla zidd olan, axmaq, batil inanc meydana gətirməkdədir. Əslində insan ağılı, heç bir kompleks varlığın öz-özünə və təsadüfən meydana gələ bilməyəcəyini, mütləq şüurlu bir planın məhsulu olduğunu anlaya biləcək vəziyyətdədir. Buna

görə də, darvinizmin bura qədər yekunlaşdırdığımız inancı da, insan ağlına tamamilə ziddir. Öz əlləri ilə hazırladıqları bütlərə sitayiş edərək insan ağlına qarşı gələn primitiv bütpərəstlər kimi, darvinistlər də insan ağlına qarşı gələrək, onu bilərəkdən göz ardı edərək, bəhs etdiyimiz bu axmaqlığa inanırlar. Məşhur molekulyar bioloq Michael Denton, “Evolution: A Theory an Crisis” (Təkamül: Böhran içində bir nəzəriyyə) adlı kitabında bu vəziyyəti belə izah edir:

“Yüksək orqanizmlərin genetik proqramlarının quruluşu, milyardlarla bit (kompüter vahidi) məlumata, ya da min cildlik kiçik bir kitabxananın içindəki bütün hərflərin düzülməsinə bərabərdir. Bu cür kompleks orqanizmləri meydana gətirən trilyonlarla hüceyrənin inkişafını təyin edən, əmr edən və nəzarət edən saysız kompleks funksiyanın tamamilə təsadüfə söykənən bir proses nəticəsində meydana gəldiyini iddia etmək isə, insan ağılına istiqamətli hücumdur. Amma bir darvinist, bu düşüncəni ən kiçik şübhə əlaməti göstərmədən qəbul edər!”49



Diqqət yetirilsə, darvinistlərin qəbul etdikləri axmaq inanc ilə qədim bütpərəst mədəniyyətlərin inancları bir-birinə çox bənzəməkdədir. Bütpərəstlər necə cansız bütlərin bütün varlıqları yaratdıqlarına inanırlarsa, təkamülçülər və materialistlər də yenə cansız maddənin bəzi təsadüflər nəticəsində bütün canlıları və özlərini yaratdığına inanmaqdadırlar (Allahı tənzih edirik).

Məhz Darvinizm dini belə bir xəyal üzərinə qurulmuşdur. Halbuki bu dinin qurucusu Çarlz Darvin, bu kompleks canlıların təsadüflər nəticəsində meydana gələ bilməyəcəyinin fərqində idi. Təbiətdə var olan mükəmməl nizam ona bütün varlıqların üstün yaradılışa sahib olduqlarını göstərirdi. Darvin bu mövzunu belə etiraf etməkdədir:

“Bu mükəmməl kainatı, xüsusilə də insanın təbiətini izləməkdən xoşbəxt ola bilmirəm... Hər şeyə dizayn edilmiş qanunların bir nəticəsi olaraq baxmağa meylliyəm... Və bütün bu qanunlar açıq şəkildə hər şeyi bilən, gələcəkdəki bütün hadisələri və nəticələri görən bir Yaradıcı tərəfindən dizayn edilmişdir. Amma daha çox düşündükcə, daha çox ağlım qarışır.”50

“Tamamilə ümidsiz bir qarışıqlığın içində olduğumu dərk edirəm. Gördüyümüz dünyanın bir təsadüf əsəri olduğunu düşünə bilmirəm. Amma eyni zamanda hər ayrı hissəyə də bir dizaynın nəticəsi olaraq baxa bilmirəm.”51

“Hər sinifdəki heyvanla əlaqədar bir çox heyrətverici və maraqlı nümunələr verə bilərəm; bunların sayı o qədər çoxdur ki, təsadüf əsəri olmaları mümkün deyil.”52

## Darvinizm dini təsirini missionerlik anlayışına borcludur

Hər hansı bir ideologiyanın, fəlsəfənin, ya da bir dinin yayılmasını təmin edənlər, ümumiyyətlə o dinin tərəfdarlarıdır. Darvinizm dini də dünya üzərindəki təsirini tərəfdarlarına və bu dini yaymağı özlərinə vəzifə bilən missionerlərinə borcludur. Hər kəsin çox yaxşı bildiyi kimi missionerlik anlayışı bir çox dində var. Missionerlər ölkə-ölkə gəzib öz dinlərini izah edən, tərəfdar toplamağa və hər ölkədə təşkilatlanmağa çalışan insanlardır. Missionerlərin əsl məqsədləri bağlı olduqları dinin mədəniyyətini, düşüncə həyatına təsirlərini və həyata baxışını insanlara izah etmək və özləri kimi düşünən, qiymətləndirən, mühakimə edən insanlar meydana gətirməkdir. Necə ki, bu kimi insanlar daha sonra təsiri altına girdikləri dinin həqiqi bağlıları arasına qatılacaqlar.



Darvinist missionerlərin ən böyük idealları da öz həyat fikirlərinə sahib cəmiyyətlər meydana gətirmək, hətta hər ölkənin təhsil sisteminə qədər bütün təşkilatlarını öz anlayışları üzərinə qurmaqdır. Allahın varlığını inkar edən, materialist bir həyat fikrinə sahib, bütpərəst, ağıl və məntiqdən kənar belə olsa gözü bağlı şəkildə bu batil dinin tələblərini tətbiq edən bir nəsil yetişdirmək ən böyük hədəfləridir.

Məhz bunun üçün missioner olaraq seçilən insanlar çox əhəmiyyətlidir. Çünki missionerliyin təməlini, seçilən insanlardakı məqsədəuyğunluq meydana gətirir. Elə insanlar seçilməlidir ki, gərək maddi, gərəksə mənəvi yöndən bu dinə çox böyük dəstəyi ola bilsin, gələcəkdə insanlar üzərində təsirli ola bilsin və geniş kütlələrə xitab edə bilsin.



Darvinizm missionerlərinə baxdığımızda bunların hər peşədən, fərqli təhsil almış insanlardan ola bildiklərini görürük. Bunun üçün güclü elmi keçmişə, yüksək mədəniyyətə ehtiyac yoxdur. Onsuz da bu dini ortaya atan Çarlz Darvin də elm adamı olmaqdan çox uzaqdır; diplomu yalnız ilahiyyat sahəsində olan, ancaq sonradan dinindən dönmüş bir adamdır. Təkamül nəzəriyyəsinin yayılmasında və qəbul etdirilməsində əhəmiyyətli rolları olan kəslərdən Çarlz Lyell vəkildir; William Smith müfəttişdir; Ceyms Hutton əkinçidir; John Playfair riyaziyyatçıdır; Robert Chambers jurnalistdir; Alfred Russel Wallace isə müfəttişlik üçün qısa təhsil almışdır.53

Darvin, bu insanlara ictimai arenada döyüşəcək “əsgərlər”i olaraq baxmışdı. Çünki özü bu cür fəaliyyətlərdən çəkinərdi; insanlar qarşısında çıxış etmək, ya da müzakirə etmək onu fiziki olaraq xəstə edirdi. Darvinin həyatı ilə əlaqədar uzun iş görən son dövrün məşhur təkamülçülərindən Richard Milner kitabında bu qrupu “Darvinin şəbəkəsi” olaraq adlandırmaqdadır.

Zamanla bu missionerlərin sayı getdikcə daha da artmış; bir çox müxtəlif ölkələrdə Darvin dinini dünyaya yayma idealını mənimsəmiş, cəmiyyətin hər seqmentindən insanlar ortaya çıxmışdır. Bunların arasında ilk ağla gələnləri “Darvinin buldoqu” olaraq xatırlanan Tomas Huxley, onun oğlu Julian Huxley, Theodosius Dobzhansky, dövrümüzdə də Richard Dawkins, Stephen Jay Gould kimi adlardır... Bu insanların ən əhəmiyyətli xüsusiyyətləri bütün axmaqlığına, məntiqsizliyinə baxmayaraq (hətta öz etiraflarında belə bunları dilə gətirsələr də) Darvinizmi müdafiə etməkdən imtina etməmələridir. Həyatlarının hər sahəsində, yazılarında, nitqlərində, hər an təkamül nəzəriyyəsindən bəhs edər, onu müdafiə edərlər. Nəzəriyyənin əsassızlıqları həmişə üzlərinə qarşı deyilsə də, onlar kor-koranə bağlılığın gətirdiyi rahatlıq içində bunları demaqogiya kimi düşünər və guya üstün çıxmağa çalışarlar. Lağlağı danışıqlar, qarşı

tərəfə istiqamətli təhqiramiz sözlər və aqressiv üslubla həqiqətlərə qarşı müqavimət göstərməyə çalışarlar. Bunu hər platformada edirlər. Təkamülçülər izahları və yalançı elmi məlumatları ilə mediaya dəstək verənlərdir. Bu formada darvinizmin mesajını insanlara çatdırma vəzifəsini boynuna götürərlər. Təkamül nəzəriyyəsini xalq üzərində bu cür təsirli edən mediadır. Medianı, açıqlamaları və qondarma elmi məlumatlarla dəstəkləyənlər də təkamülçü elm adamlarıdır. Bu üsulla darvinistlər cəmiyyətin elm adamlarına olan hörmət və etibarlarını istismar etməkdədirlər.

Darvinist missionerlərin iş metodları hər ölkədə böyük paralellik göstərməkdədir. Məqsədləri insanların gözlərini boyamaq olduğu üçün, iki fərqli yol izləməkdədirlər. Bunlardan birincisi açıq şəkildə darvinizmin izah edilməsi, təlimlərini izah etməsidir. Bunun üçün kitablar çap olunar, media isə bir az əvvəl də ifadə etdiyimiz kimi, çox sıx şəkildə istifadə edilər. Jurnallar və qəzetlərdə darvinizm mövzulu xəbərlər nəşr olunar. Bu xəbərlərdə elmilik ya da düzgünlük çox böyük əhəmiyyət daşımaz; əhəmiyyətli olan insanların yaradılış həqiqətindən uzaqlaşdırılması və təkamül fikrinə alışdırılmasıdır.


Stephen Jay Gould


Richard Dawkins

## Darvinizmin azğın əxlaq anlayışı

Darvin dinini yaymaq üçün izlənilən ikinci üsul isə gizli və bilavasitə təlqinlərlə insanları darvinist kimi düşünən və yaşayan hala gətirməkdir.

Darvinizmin insana verdiyi ən əhəmiyyətli təlqin, "kimsəyə qarşı məsul deyilsən, həyatını təsadüflərə borclusan, yaşamaq üçün mübarizə aparmaq, lazım olsa digərlərini əzməyin lazımdır, bu dünya qarşıdurma və mənfəət dünyasıdır" təlqinidir. "Təbii seleksiya", "həyat mübarizəsi", "güclülərin həyatda qalması", "təsadüfi mutasiyalar" kimi bioloji darvinist anlayışların verdiyi sosial mesaj, məhz bu təlqindir. Diqqət yetirilsə, dövrümüzdə cəmiyyətdə bu təlqin eynilə mənimsənmiş, bir çox insan bu təlqinə görə yaşamağa başlamışdır. Baxdığımızda, insanların bəzilərinin yalnız dünyadakı həyatını davam etdirmək, yaxşı peşə, mal-mülk və pul qazanmaq, əylənmək və beləcə "həyat mübarizəsində qalib gəlmək" üçün yaşadıqlarını görərik. Xüsusilə də gənclərin arasında dəbdəbəli ev və avtomobillərə sahib olmaq, məhdudiyyətsiz xərclər etmək ən böyük ideallar halını almışdır. Bu anlayış içindəki insanlar nə üçün var olduqlarını düşünməz, Allahın varlığını heç düşünməzlər. Sanki heç yaradılmamış, onları yaratmış olan Allaha qarşı heç bir məsuliyyətləri yoxmuş kimi yaşayırlar. Bu insanların bir çoxunun təkamül nəzəriyyəsindən, Darvinin fikirlərindən xəbəri belə yoxdur. Amma həyata darvinist məntiqlə baxmaqdadırlar.

Məhz bunun səbəbi, yuxarıda ifadə etdiyimiz gizli darvinizm təlqinidir. Darvinizm adı ifadə edilməsə də, cəmiyyətin hamısına hakim olan əxlaq anlayışı vəziyyətinə gəlmişdir.

Bu əxlaq anlayışını dəstək olanlar isə, bəhs etdiyimiz darvinist missionerlərdir. Bu kütlə cəmiyyət içində nisbəti az da olsa, o cəmiyyətə fikri baxımdan istiqamət verən kütlədir. Bu seqment universitetlərdə, mediada, bir çox elmi təşkilatda və insanların düşüncələri üzərində təsirli olan hər cür ictimai sektorda güclü və hakim vəziyyətdədir. Cəmiyyəti formalaşdıran, təhsil siyasətini müəyyənləşdirən və media vasitəsilə insanların şüurunu formalaşdıran qrup, bu ateist təkamülçülərin böyük hissəsini təşkil edir.

Cəmiyyətin əhəmiyyətli bir hissəsi "mən necə var oldum" sualı üzərində heç düşünmədən bomboş zehinlə yaşaya bilir. Ancaq izlədikləri filmləri tərcümə edən, oxuduğu qəzet və jurnalları hazırlayan, teatrda, incəsənət mərkəzlərində, nəşriyyatda, musiqi dünyasında üstünlük təşkil edən və özlərini "ziyalılar" adlandıran insanların bir çoxu darvinizmə din olaraq inananlardır. Buna görə də, bir gənc universitetdə təhsil alanda darvinist müəllimlərin təlqini altında qalmaqda, kitab sərgisini gəzdiyində darvinist və ateist kitablarla qarşılaşmaqda, sənət qalereyasına, teatr oyununa getdiyində, yenə eyni mesajlar beyninə həkk olunmaqdadır. Beləcə cəmiyyətin təhsilli seqmentini təsiri altına alan və nəsildən nəsilə ötürülən dinsiz əxlaq anlayışı yaradılmaqdadır. Darvinizm də bu əxlaq anlayışının ən böyük dayağıdır.




Bu əxlaq anlayışının təsiri altına girmiş olanlar, darvinizmi elmi həqiqət sanmaqda, ona kor-koranə inanmaqda, həqiqi dini isə “xalqın sahib olduğu ənənəvi inanc” olaraq görməkdədir (Allahı tənzih edirik). Necə ki, Quranda inkarçılara “Rəbbiniz nə endirdi?” deyildiyində, onların “keçmişdəkilərin nağılları” deyə cavab verdikləri bildirilməkdədir (Nəhl surəsi, 24).




Halbuki əsl din yəni İslam, ənənələrlə heç bir əlaqəsi olmayan, açıq-aşkar və mütləq bir həqiqətdir. İnsanın, Yaradıcımız olan Allaha dönüb-yönəlməsidir. Amma darvinizmlə aldadılan insanlar bu həqiqəti qavraya bilməyəcək qədər şüursuz olmuşlar. Bu batil dinin ortadan qaldırılması, cəmiyyətin üzərindəki qəflət pərdəsinin aralanması üçün, darvinizmin və materialist fəlsəfənin elmi üsullarla məhv edilməsi vacibdir.

## Darvinizm dininin tabuları vardır və təkamülçülər bunların araşdırılmasına icazə verməzlər

Heç bir elmi əsası olmayan və yalnız demaqogiya məhsulu olsa da, darvinizm insanlar arasında çox güclü bir yerə sahibdir. Bunun səbəbi də, insanların darvinizmi araşdırmaq, daha doğrusu araşdıra bilməmələridir. Çünki darvinizm dinində sorğu-sual etmək, sual soruşmaq qadağan edilmişdir. Bu batil din, qeyd-şərtsiz iman etməyi tələb edir.

Darvinist ola bilmək üçün canlıların cansız maddələrdən meydana gəldiyinə, sürünənlərin təsadüflər nəticəsində uçmağa başladıqlarına, yenə nəzarətsiz təsadüflərin nəticəsində hüceyrə kimi, göz kimi, qulaq kimi son dərəcə kompleks orqanların var olduqlarına, hətta balina kimi dəniz heyvanlarının, ayı kimi məməlilərin yemək axtarmaq üçün dənizə girmələri nəticəsində meydana gəldiklərinə, quşların da milçəklərin arxasından qaçan dinozavrların qanadlanması nəticəsində var olduqlarına inanmaq lazımdır. Bütün bu ilkin şərtlərin nə qədər ağıldan kənar və məntiqsiz olduqları isə açıq-aşkar bir şəkildə ortadadır.

Bəlkə bu sətirləri oxuduğunuzda “hörmətli” elm adamları bunlara inandıqlarına görə əllərində mütləq bir dəlilləri vardır deyə düşünə bilərsiniz. Amma xeyr, ortada ən kiçik bir dəlil belə yoxdur, yalnız təxminlər, fərziyyələr, ehtimallar və ilham almalar vardır. Bu mövzuda qərar bir dəfə verilmişdir. Artıq buna iman etmək lazımdır (Yuxarıda saydığımız bütün maddələrin reallaşmasının mümkün olmadığı haqqında ətraflı məlumat əldə etmək üçün baxın: “Təkamül yalanı”, Harun Yəhya və “Həyatın həqiqi mənşəyi”, Harun Yəhya, Araşdırma nəşriyyat).

Yuxarıda qeyd etdiyimiz kimi, Darvinizm dinində hər hansı bir təlimə inanmaq üçün bu fərziyyənin necə həyata keçirildiyi, onun ehtimalı və ya danılmazlığı barədə hər hansı bir məlumata sahib olmaq lazım deyil. Çünki bu dinin tərəfdarları bir mövzuya iman etmək üçün hər hansı bir dəlil tələb etməzlər. Sadəcə jurnalda oxuduqları bir məqalə, hər hansı bir kitab, izlədikləri qısa sənədli film onların bu dinə iman etmələri üçün kifayətdir. Onsuz da yalançı ara-forma olaraq ortaya qoyulan fosillər, həqiqət kimi göstərilməyə çalışılan saxta şəkillər, illüstrasiyalar, elmi kəşflər nəticəsində etibarsızlığı ortaya çıxan "Miller təcrübəsi" kimi təcrübələr haqqında araşdırma edilə bilməz, sual verilə bilməz. Artıq bu cür təşəbbüslə məşğul olanlar Darvinist missionerlər tərəfindən elmi dairələrdən kənarlaşdırılır və demək olar ki, "xaric olunurlar". Çünki bu mövzular üzərində bir az olsun düşünmələri, ya da oxuyub araşdırmaları bəzi həqiqətləri görmələri ilə nəticələnəcək.

Elmi mövzularda az məlumatı olan bir insan, sahilə çıxan bir balığın bu yeni mühitə uyğunlaşmağa vaxt tapmayacağını və tezliklə öləcəyini bilir. Ya da hüceyrənin kompleks quruluşu haqqında bir az məlumat sahibi olan bir adam bu möcüzəvi orqanizmin təsadüflər nəticəsində meydana gələ bilməyəcəyini anlaya bilər. Və ya bir sürünənin təsadüfü proseslə qanad sahibi olub uça bilməyəcəyini də anlaya bilər. Sağlam düşüncə ilə başa düşülən bu həqiqətlər, hər cür təcrübə və müşahidələrlə də təsdiqlənəcəkdir. Amma darvinist təlimin nəticəsi olaraq insanlar bu mövzuları düşünmək istəməzlər, düşünməkdən qorxarlar.

Halbuki insan ancaq düşündükcə, araşdırdıqca, həqiqətləri görəcək, mühakimələrdən xilas olacaq və tabulara qarşı dayana biləcək. Sonsuz güc və qüdrət sahibi olan Rəbbimizin kainatı yoxdan var etdiyini anlamaq üçün də, insanların göylərin və yerin yaradılışı mövzusunda dərin düşünmələri lazımdır. Ön mühakimələrdən sıyrılaraq düşünmənin nəticəsində insanın gələcəyi tək nəticə, Allahın üstün yaratması

olacaqdır. Allah Quranda düşünmənin əhəmiyyətini bu şəkildə bildirməkdədir:

> *Şübhəsiz ki, göylərin və yerin yaradılmasında, gecə və gündüzün bir-birini əvəz etməsində, insanlar üçün faydalı şeylərlə yüklənərək dənizlərdə üzən gəmilərdə, torpaq öldükdən sonra Allahın göydən endirib onunla (bitkiləri) canlandırdığı suda, hər növdən heyvanları orada yaymasında, küləklərin (istiqamətinin) dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda düşünənlər üçün (Allahın varlığını və birliyini göstərən) dəlillər vardır.*
>
> **(Bəqərə surəsi, 164)**

> *Onlar ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlayar, göylərin və yerin yaradılması haqqında düşünərlər (və belə deyərlər:) "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan. Sən pak və müqəddəssən! Bizi cəhənnəm əzabından qoru!*
>
> **(Ali İmran surəsi, 191)**

Darvinist liderlər insanların sərbəst düşünməsinin təkamül nəzəriyyəsinin sonu olacağını yaxşı bilirlər və buna görə də, bunu qadağan etdilər. Bunun üçün izlədikləri üsullardan ən əhəmiyyətlisi, bu dinin guya elmi tərəfini son dərəcə kompleks, çətin, aydın olmayan şəkildə insanlara təqdim etməkdir. Aydın olmayan terminlər, latın dilində sözlər, elmi bənzətmələr istifadə edər və bunların "adi" insanlar tərəfindən əsla başa düşülə bilməyəcəklərini israrla vurğulayırlar. İnsanlar bu mənzərədən çox təsirlənər və daha əvvəlcədən "bunlar qəti mənim anlaya biləcəyim şeylər deyil" şəklində qərar verirlər. Bu anlayışa

görə Darvinizm dininin qondarma dayaqları ancaq “böyük” elm adamlarının biləcəyi və anlaya biləcəyi şeylərdir. Alçalmamaq üçün onların söylədiklərini qəbul etməyi də ən məntiqli şey olaraq görərlər. Beləcə dinin qabaqcılları ilə tərəfdarları arasında güclü bir sədd çəkilər və hər kəs öz yerini bilər.

Ancaq Darvinistlər keçirdikləri bütün tədbirlərə, qadağalara və əngəllərə baxmayaraq tərəfdarlarının şübhə etmələrinə mane ola bilməzlər. Çünki bu insanların ətrafında təkamül dinindən şübhə duymalarına səbəb olacaq minlərlə yaradılış dəlili vardır. Yer üzündəki qüsursuz nizam, canlılardakı bir-birindən maraqlı xüsusiyyətlər, atomdan qalaktikalara qədər bütün yaradılış dəlillərindəki göz qamaşdırıcı plan, bütün canlı orqanizmlərdəki kompleks strukturlar, təbiətdəki gözəlliklər, bir gülün qoxusu, ya da bir meyvənin dadı üzərində düşünmək insanların darvinist nəzəriyyələrə şübhə etmələri üçün kifayətdir.

Eyni zamanda, elmi kəşflər təkamül nəzəriyyəsinin iddialarını bir-bir inkar edir və bir çox elm adamı bu həqiqəti müxtəlif yollarla ifadə edir. Darvinistlər tərəfdarlarının bu həqiqətləri düşünmələrinə maneə törətmək üçün əllərindən gələn hər şeyi etsələr belə, bu həqiqətlərin üstünü palçıqla suvaya bilməzlər. Çünki nə qədər eşitmək istəməsələr də, ətraflarında həmişə darvinizmin etibarsızlığını izah edən çıxışlar, yazılar və kitablar var və bunlara mane olmaları qeyri-mümkündür.

Məhz bu nöqtədə darvinist missionerlərin təcili tədbir olaraq müraciət etdikləri çox əhəmiyyət bir üsul vardır: Saxtakarlıq...

## Təkamülçülər, şübhələri aradan qaldırmaq üçün saxtakarlıq etməyi mübah görərlər

Təkamülçülər nəzəriyyələrini qorumaq və nəzəriyyənin əsas iddialarını dəstəkləmək üçün tarix boyu bir çox saxtakarlıqlar etdilər. Darvinistlər şübhələrin ancaq bu şəkildə aradan qaldırılacağını düşünürlər, çünki müəyyən müddətdən sonra boş sözlərin, demaqogiyanın öz dəyərlərini itirdiyini başa düşürlər. İnsanlar təkamül nəzəriyyəsini müdafiə edənlərdən dəlil, sübut gözləməkdədirlər. Onların bu gözləmələrinə darvinistlərin verə biləcəkləri tək cavab isə məhz bu saxta dəlillərdir. Çünki xəyali proses olan təkamülü müdafiə etmənin başqa hər hansı bir yolu yoxdur. Elmi tapıntılar təkamülü çürütdüyünə görə geriyə tək yol olaraq saxtakarlıqlara müraciət etmək qalır. Ya tapıntılar gizlənər və ya məhv edilər, ya da bunlar təhrif edilərək sanki təkamül nəzəriyyəsini dəstəkləyirmiş kimi göstərilər. Məhz dayaqsız olan təkamül nəzəriyyəsini davam etdirə bilmək üçün edilə biləcək yeganə səy, ancaq bunlar olacaq...



Bunlardan biri irəli sürdükləri guya "meymun insan" imicini dəstəkləyə bilmək üçün uydurduqları xəyali şəkillərdir. Bu məqsədlə əllərinə fırçaları alıb xəyali varlıqlar çəkər, kompüterdə yeni "meymun insan" şəkilləri çəkərlər. Lakin bunu edərkən ilham aldıqları tək qaynaq xəyal gücləridir, çünki əllərində hər hansı bir elmi qaynaqları yoxdur. Buna görə də, nəzəriyyələrini dəstəkləyəcək dəlilləri hazırlamağa başlayarlar. Allahın yaradılışındakı qüsursuz gözəllikləri ortaya qoyan həqiqət iman həqiqətləri olduğu kimi, darvinistlər də öz dinlərinin saxta iman həqiqətlərini meydana gətirirlər.

Budan başqa, darvinistlər keçmişdə daha konkret və elm tarixinə bir qalmaqal olaraq düşən saxtakarlıqlar da etmişlər.




Məsələn 1912-ci ildə ortaya atılan və 1953-cü ilə qədər bütün dünyanı aldadan "Piltdown adamı" kəllə sümüyü, bir təkamülçü tərəfindən insan

kəllə sümüyünə oranqutan çənəsi bağlanmaq surətiylə hazırlanmış saxta fosildir. Saxta kəllə sümüyün dişləri, insana aid olduğu təəssüratını vermək üçün sonradan xüsusi olaraq əlavə olunmuş və sıralanmış, oynaq yerləri də hamaralanmışdır. Daha sonra da bütün hissələr, köhnə görünmələri üçün kalium dikromat ilə ləkələnildirilmişdir. Bu fosili dünyanın ən məşhur muzeyi ünvanını daşıyan “British Museum”da 40 il boyunca sərgiləyən təkamülçülər, bu 40 il boyunca bütün elm dünyasını aldatmışlar (Ətraflı məlumat üçün baxın: “Təkamül yalanı”, Harun Yəhya).

Bir başqa maraqlı saxtakarlıq, Darvinin müasiri və dostu, alman bioloq Ernst Haeckelin imzasını daşımaqdadır. Haeckel, ortaya atdığı “Biogenetik qanun” (Ontogeny Recapitulates Phylogeny) nəzəriyyəsini dəstəkləmək üçün, balıq və insan embrionlarını bir-birinə bənzər göstərən saxta şəkillər hazırlamışdır. Embrionların şəkillərinə bəzi dəyişikliklər etmiş, bəzi hissələri isə çıxarmışdır. Bunun ortaya çıxmasından sonra dediyi söz isə, digər təkamülçülərin də buna bənzər saxtakarlıqlar etdiyini ifadə etməkdən başqa bir şey deyil:





"Bu etdiyim saxtakarlıq etirafından sonra özümü ayıblanılmış və qınanmış olaraq görməliyəm. Lakin mənim təsəllim budur ki; günahkar vəziyyətdə yan-yana olduğumuz yüzlərlə yoldaş, bir çox etibarlı müşahidəçi və məşhur bioloq vardır ki, onların dərc etdikləri ən yaxşı biologiya kitablarında, tezislərində və jurnallarında mənim kimi edilmiş saxtakarlıqlar, qəti olmayan məlumatlar, təhrif edilmiş, sxemləşdirilmiş, yenidən təşkil edilmiş şəkillər var."54

Bu saxtakarlıqlar ilk anda ağla gələn və mətbuata əks olunandan yalnız bir neçəsidir. Lakin təkamül tarixi araşdırıldığında daha bir çox saxtakarlıqla qarşılaşılacaq: saxta şəkillər, xəyali bərpalar, fosillərə edilən dəyişiklər... Bu saxtakarlıqların məqsədi isə elmi həqiqətlərdən özünə dəstək tapa bilməyən, bu nəzəriyyəyə bir şəkildə dəstək ola bilmək, onu mümkün olduğu qədər yaşada bilməkdir. Bu saxtakarlıqlar təkamülün fanatik bir din, təkamül müdafiəçilərinin də batil dinlərini müdafiə etmək üçün hər şeyi gözə alan fanatiklər olduqlarının çox əhəmiyyətli bir dəlilini meydana gətirməkdədir.

FƏSİL

# Nəticə

> *Şübhəsiz ki, bunların içində olduqları din çökmüşdür. Etdikləri işlər də batildir!"*
>
> **(Əraf surəsi, 139)**

Darvinizm dini haqqında bu qədər geniş məlumat sahibi olduqdan sonra, hər insan özünə bu sualı verməlidir: Bu dinin məqsədi nədir? Qurucusu, yalançı müqəddəs kitabı, missionerləri ilə dünyada güclü təşkilatlanma quran Darvinizm dininin məqsədi nədir?

Bu dinin bir məqsədi var. Allahın vəhyinə əsaslanan düzgün dinlər, saxtalaşdırılmamış yeganə din olan İslamı əvəz etmək və onları aradan qaldırmaq. Yəni Darvinizm dini haqq dinlərə qarşı yaradılan qarşı dindir, guya alternativ olaraq ortaya atılmışdır. Necə ki, indiyə qədər bütün paqan dinlər də, həqiqətdə bu məqsədə xidmət etmişdir. Quranda bütpərəst Səba xalqı haqqında bu məlumat verilməkdədir:

> *Onun və qövmünün Allahı qoyub günəşə səcdə etdiklərini gördüm. Şeytan əməllərini özlərinə gözəl göstərib onları haqq yoldan döndərmişdir. Buna görə də onlar haqq yolu tapa bilmirlər. Göylərdə və yerdə gizli olanı aşkar edən və həm gizlində, həm də aşkarda etdiklərini bilən Allaha səcdə etməmələri üçün (şeytan belə etmişdir).*
>
> **(Nəml surəsi, 24-25)**

Ayədə Səba xalqının batil dinlərinə görə Günəşə səcdə etdikləri bildirilirkən, çox əhəmiyyətli bir neçə mövzuya daha diqqət çəkilməkdədir. Bunlardan ən əhəmiyyətlisi, bu bütpərəst dini quran, insanlara bəzəkli göstərən, doğru yoldan azdıranın şeytan olduğudur. Başqa sözlə, Allahın vəhyinə qarşı olan bu bütpərəst dinlər şeytanın vəhyinə əsaslanır. Şeytan bunu edir ki, insanlar Allaha səcdə etməsinlər. Yoxsa şeytan da Günəşə tapınılacaq bir ilah olmadığını bilməkdədir. Bütün kainatı olduğu kimi Günəşi də yaradan Allahdır.

Darvinizm dini də, ona bağlananlar "təkamül prosesi"nə xidmət etsinlər, təkamülçülər arasında həmrəylik yaradıb, birlikdə elmi tədqiqatlar aparsınlar deyə yaradılmayıb. Necə ki, ortada "təkamül prosesi" də yoxdur. Məqsəd, bu saxta dini istifadə edərək insanları Allaha inanmaqdan çəkindirməkdir. Necə ki, darvinizmin qabaqcıl qurucularından Julian Huxley də öz ağlına görə "...Təkamül bir zamanlar Tanrının boynuna götürdüyü funksiyanı yerinə yetirə bilər, yəni insan oğlunun inanc və ümidlərini koordinasiya edən güclü bir prinsip ola bilər"55 (Allahı tənzih edirik) deyərkən bu məqsədi dilə gətirməkdədir.

Buna görə də, təkamül dininin ən əhəmiyyətli hədəfi, insana təsadüflər nəticəsində var olduğunu və dolayısilə heç bir ilahi qaydaya qarşı məsuliyyət daşımaması yalanını aşılamaqdadır. Təkamülçülər öz ifadələrində də bunu tez-tez vurğulamaqda və insanın öz "ustası və sahibi" olduğunu və "yalnız özünə qarşı məsul olduğunu" vurğulamaqdadırlar.

Bu vurğu isə insanlara İslamda və Allahın vəhyinə söykənən digər haqq dinlərdə bildirilən həqiqətlərin tam tərsidir. Allah insanları bir damla sudan yaratmış və ona "məsuliyyətsiz" buraxılmadığını bildirmişdir:

*İnsan özbaşına buraxılacağınımı zənn edir?! O, (ana rəhminə) atılan bir nütfə deyildimi?! Sonra o ələqə (rüşeym) oldu və Allah onu yaradıb surət verdi. Beləcə, ondan bir cüt - kişi və qadını yaratdı. Elə isə Allah ölüləri təkrar diriltməyə qadir deyilmi?!*

**(Qiyamət surəsi, 36-40)**

Allah insana bir nizam içində forma vermiş və dünya həyatını onun üçün sınaq müddəti etmişdir. İnsan bu müddət ərzində etdiyi hər hərəkətdən, söylədiyi və yazdığı hər sözdən, ağlından keçən hər cür düşüncədən hesaba çəkiləcək. Çünki insan Rəbbimizə qarşı məsuldur.

Məhz bu səbəblə, bu günə qədər təkamül dininin təsiri altında qalmış, hətta o dinin fanatik tərəfdarı olan insanların da bu təsirdən dərhal sıyrılmaları, bu şərəfli məsuliyyətlərinin fərqinə varmaları və Rəbbimiz olan Allaha boyun əyib, təslim olmaları lazımdır. Yoxsa "...Onlar bütün möcüzələri görsələr də onlara inanmazlar. Onlar doğru yolu görsələr, ora yönəlməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər..." (Əraf surəsi, 146) ayəsində bildirildiyi kimi "mühafizəkar", "sabit fikirli" insanlar olmaqdan xilas ola bilməyəcəklər. Xurafatçı bir dinin üzvü olaraq batil bir həyatda yaşayarkən, heç düşünmədikləri bir vaxtda hesab günü ilə qarşılaşacaqlar və Rəbbimiz qarşısında cavab verə bilməyəcəklər və əbədi cəza alacaqlar.

ƏLAVƏ BÖLMƏ

# Təkamül yalanı

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-

özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu

təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr

birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

> **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə “təkbaşına” və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv

edər”. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq,

qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən

bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin

əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

## Australopithecus

## Homo habilis

## Homo erectus

## Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli

canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "Homo sapiensə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. (J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)

Təkamülçülər "ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb

çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli

qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir

təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. (Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 yanvar 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz

daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi

qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!*
>
> **(Bəqərə surəsi, 6-7)**

> *... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!*
>
> **(Əraf surəsi, 179)**

Allah “Hicr” surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

> *Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: “Gözümüz bağlanmış, biz sehrlənmişik”, - deyərlər.*
>
> **(Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> *(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər.*
>
> **(Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

> *Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər.*
>
> **(Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

> *...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən!*
>
> **(Bəqərə surəsi, 32)**

FƏSİL

# Ədəbiyyat


1) Nature, “Darwin's Death in South Kensington”, 26 fevral 1981, cild 289, səh. 735. “Darwin on Trial”, Phillip E. Johnson, InterVarsity Press, 1991, səh. 138

2) Francisco Ayala, “Nothing in Biology Makes Sense Except in the Light of Evolution: Theodosius Dobzhansky, 1900-1975”, Journal of Heredity, (cild 68, sayı 3, 1977), səh. 3.

3) G.W. Harper, “Alternatives to Evolutiotism”, School Scince Review (cild 51, sentyabr 1979), səh. 16.

4) Ern st Mayr, “Evolution”, Scientific American (cild 239, sentyabr 1978). səh. 47.

5) Julian Huxley, “Evolution and Genetics”, Ch.. 8 in What is Science? (Ed. J.R. Newrnan, New York, Simori and Schuster, 1955) səh. 272, 278

6) Karl Popper, The Philosophy of Karl Popper, cild 1, ed. P.A. Schilpp, (La Salle, IL: Open Court Publishers), səh. 183.

7) Henry M. Morris, “The Long War Against God”, Baker Book House, 1996, səh.127

8) 2. L.C. Birch and P.R. Ehrlich, Nature, cild 214 (1967), səh. 369.

9) Charles Darwin, “The Origin of Species: A Facsimile of the First Edition”, Harvard University Press, 1964, səh. 179

10) Ümit Sayın, “Uçtu Uçtu Dinozor Uçtu”, Bilim ve Ütopya, noyabr 1998

11) Philip E. Johnson, “Darwin on Trial”, 2-ci nəşr, Illinois: Intervarsity Press, 1993, səh. 131

12) Milli Təhsil Nazirliyi, M. Vehbi Dinçerler, “Evrim Teorisi, İlmi Gerçekler ve Yaratılış Modeli”, Ankara, MEB nəşriyyatı, 1985, səh.29

13) Margorie Grene, “Encounter”, (noyabr 1959), səh. 48-50.

14) “Evrim Teorisinin Çöküşü ve Yaratılış Gerçeği Konferansı”, 4 aprel 1998, Prof. Dr. Kenneth Cummingin nitqi

15) Osman Gürel, “Yaşamın Kökeni”, Pan Yayıncılık, oktyabr 1999, səh. 4

16) http://buglady.clc.uc.edu/biology/bio106/earlymod.htm

17) David L. Johnson, “A Reasoned Look at Asian Religions”, Minneapolis, Bethany House, 1985, səh. 87-88

18) Carl Sagan, “Cosmos”, Nyu York: Random House, 1980, səh. 243

19) Henry M. Morris, “The Long War Against God”, Baker Book House, 1996, səh. 220- 224

20) Michael J. Behe, “Darwin's Black Box”, Free Press, 1996, səh. 159

21) Ord. Prof. Ernst von Mayer, “İlkçağ ve Ortaçağ Felsefe Tarihi”, səh. 19

22) http://buglady.clc.uc.edu/biology/bio106/earlymod.htm

23) Ord. Prof. Ernst von Mayer, “İlkçağ ve Ortaçağ Felsefe Tarihi”, , səh. 24-25

24) David Skjaerlund, Philosophical Origins of Evolution, http://www.forerunner.com/forerunner/X0742_Philosophical_origin.html)

25) D. R. Oldroyd, “Darwinian Impacts”, Atlantic Highlands, N. J Humanities Press, 1983, səh. 23, 32

26- Loren Eiseley, “Darwin's Century”, səh. 283

27- Francis Darwin, “The Life and Letters of Charles Darwin”, cild 2, New York:D. Appleton and Company, 1888, səh. 501

28- Francis Darwin, “The Life and Letters of Charles Darwin”, cild 1, New York:D. Appleton and Company, 1888, səh. 395

29) Francis Darwin, “The Life and Letters of Charles Darwin”, cild 2, New York:D. Appleton and Company, 1888, səh. 25

30) Charles Darwin, “Türlerin Kökeni”, Onur Yayınları, beşinci nəşr, Ankara 1996, səh. 185

31) H. S. Lipson, “A Physicist's View of Darwin's Theory”, Evolution Trends in Plants, cild 2, sayı 1, 1988, səh. 6

32) “The Evidence for Creation: Examining The Origin of Planet Earth”. səh. 94

33) Henry Morris, “The Long War Against God”. Baker Book House, 1996, səh. 178

34) C. L. “Mason Aleyhtarlığı”. Mimar Sinan, cild 4, sayı 13, 1973. səh. 87-88

35) William R. Denslow. “10,000 Famous Freemasons”. cild 1. Macoy Publishing & Macoy Supply Co., Inc. Ricmond, Virginia, 1957. səh. 285

36) Henry Morris, “The Long War Against God”, səh. 198.

1776-cı ildə Almaniya, Bavyerada qurulan “İllüminati” (Illüminatlar) adlı təşkilat, bir növ mason lojası idi. Lojanın yəhudi əsilli qurucusu Adam Weishaupt, təşkilatın məqsədlərini bu şəkildə sıralamışdı:

Bütün monarxiyaların və nizamlı hökumətlərin ləğv edilməsi,

Şəxsi mülkiyyət və varisliyin ləğv edilməsi,

Ailə həyatı və evlilik təşkilatının ləğv edilməsi və uşaqlar üçün kommunal təhsil sisteminin qurulması,

Bütün dinlərin ləğv edilməsi.

(baxın: Eustace Mullins, “The World Order: Our Secret Rulers”, səh. 5; Lewis Spence, “The Encyclopedia of the Occult”, səh. 223)

37) Henry Morris, “The Long War Against God”. səh. 198.

38) William R. Denslow. “10,000 Famous Freemasons”. Cild 1. Macoy Publishing & Macoy Supply Co., Inc. Ricmond, Virginia, 1957. səh. 285

39) Variasiyaların “makro təkamül” iddiasına, yəni növlərin mənşəyinə heç bir izah gətirə bilmədiyi, təkamülçü bioloqlar tərəfindən də qəbul edilmişdir. Məşhur təkamülçü paleontoloq Roger Lewin, 1980-ci il noyabr ayında Çikaqo Təbiət Tarixi Muzeyində 150 təkamülçünün qatıldığı, dörd gün davam edən məşhur simpoziumda bu mövzuda gəlinən nəticəni belə izah edər:

“Darvinin (variasiyalardan yola çıxaraq) düşüncəsi haqlı idimi? Təkamüllü biologiyanın tarixindəki son 40 ilin ən əhəmiyyətli konfranslardan birinə qatılan elm adamlarının ortaya qoyduqları mühakiməyə görə, bu problemin cavabı “xeyr”dir. Çikaqo konfransındakı əsas məsələ, makro-təkamül dediyimiz fenomeni izah etmək üçün variasiya mexanizmlərindən istifadə olunmaması idi ....Cavab açıq şəkildə verilə bilər: Xeyr." (R. Lewin, “Evolutionary Theory Under Fire” Science, cild 210, 21 noyabr 1980, səh. 883)

40) Norman Macbeth, “Darwin Retried: An Appeal to Reason”, Boston:Gambit, 1971, səh.101

41) Phillip E. Johnson, “Defeating Darwinism by Opening Minds”, InterVarsity Press, səh.99

42) Philip E. Johnson. “Darwin On Trial”. Intervarsity Press, Downers Grove, Illinois. 2-ci nəşr. 1993. səh. 155

43) Francis Darwin, “The Life and Letters of Charles Darwin”, cild 2, New York:D. Appleton and Company, 1888, səh. 388

44) Francis Darwin, “The Life and Letters of Charles Darwin”, cild 2, New York:D. Appleton and Company, 1888, səh. 42-43

45) Jacques Barzun, Darwin, Marx, Wagner, Garden City, New York, Doubleday, 1958, səh.84

46) Henry M. Morris, “The Long War Against God”, Baker Book House, 1996, səh. 156

47) Pierre Paul Grassé, “Evolution of Living Organisms”, New York: Academic Press, 1977, səh. 103

48) B.G. Ranganathan, “Origins?, Pennsylvania: The Banner of Truth Trust”, 1988, səh. 1159

49) Pierre-Paul Grassé, “Evolution of Living Organisms”, Academic Press, New York, 1977, səh. 103

50) Francis Darwin, “The Life and Letters of Charles Darwin”, cild 2, New York:D. Appleton and Company, 1888, səh. 105

51) Francis Darwin, “The Life and Letters of Charles Darwin”, cild 2, New York:D. Appleton and Company, 1888, səh. 146

52) Francis Darwin, “The Life and Letters of Charles Darwin”, cild 1, səh. 455

53) Henry M. Morris, “The Long War Against God”, Baker Book House, 1996, səh. 161

54) Francis Hitching, “The Neck of the Giraffe: Where Darwin Went Wrong”, New York: Ticknor and Fields 1982, səh. 204.

55) Julian Huxley, and Jacob Bronowski, “Growth of Ideas”, Prentice Hall, Inc. Englewood Cliff, 1986, səh. 99

56) Sidney Fox, Klaus Dose, “Molecular Evolution and The Origin of Life”, New York: Marcel Dekker, 1977. səh. 2

57) Alexander I. Oparin, “Origin of Life,” (1936) New York, Dover Publications, 1953 (Reprint), səh.196

58) “New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, cilt 63, noyabr 1982, səh. 1328-1330.

59) Stanley Miller, “Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules”, 1986, səh. 7

60) Jeffrey Bada, “Earth”, fevral 1998, səh. 40

61) Leslie E. Orgel, “The Origin of Life on Earth”, Scientific American, 271-ci cild, oktyabr 1994, səh. 78

62) Charles Darwin, “The Origin of Species: A Facsimile of the First Edition”, Harvard University Press, 1964, səh. 189

63) Charles Darwin, “The Origin of Species: A Facsimile of the First Edition”, Harvard University Press, 1964, səh. 184.

64) B. G. Ranganathan, “Origins?, Pennsylvania: The Banner Of Truth Trust”, 1988.

65) Charles Darwin, “The Origin of Species: A Facsimile of the First Edition”, Harvard University Press, 1964, səh. 179

66) Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, 87-ci cild, 1976, səh. 133

67) Douglas J. Futuyma, “Science on Trial”, New York: Pantheon Books, 1983. səh. 197

68) Solly Zuckerman, “Beyond The Ivory Tower”, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, 258-ci cild, səh. 389

69) J. Rennie, “Darwin's Current Bulldog: Ernst Mayr”, Scientific American, dekabr 1992

70) Alan Walker, “Science”, cild 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1st ed., New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272

71) “Time”, noyabr 1996

72) S. J. Gould, “Natural History”, cild 85, 1976, səh. 30

73) Solly Zuckerman, “Beyond The Ivory Tower”, New York: Toplinger Publications, 1970, səh. 19

74) Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 fevral, 1997, səh. 28.

75) Malcolm Muggeridge, “The End of Christendom, Grand Rapids: Eerdmans”, 1980, səh.43

KİTAB HAQQINDA

**Elə bir din təsəvvür edin ki, banisi elm adamı, kitabı güman edilən elmi mesajla ortaya çıxan bir tədqiqat əsəri, tərəfdarları isə bu kitaba iman edən kütlələrdir. Darvinizm, yəni təkamül nəzəriyyəsi, məhz belə bir dindir.**

Bu kitab, Darvinizmin bir elmi nəzəriyyə deyil, qədim bütpərəst inanclardan törəmiş batil bir din olduğunu, bütün dini xüsusiyyətləri ilə birlikdə — banisi, kitabı, missionerləri və tabuları ilə — təfsilatı ilə ortaya qoymaqdadır.

— HARUN YƏHYA —

**MÜƏLLİF HAQQINDA**

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur.